İqtisadi Təşəbbüslərə Yardım Mərkəzi
Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)
İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi

**"Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması" layihəsi**

"Azərbaycan 2020: Gələcəyə baxiş" İnkişaf Konsepsiyasının
**"Qanunvericiliyin təkmilləşdirilməsi və müvafiq institusional potensialın gücləndirilməsi"** istiqaməti üzrə

# Monitorinq Hesabatı

**Samir Əliyev**
**Abil Bayramov**

**Bakı, yanvar 2016**

# İçindəkilər


1. **Giriş** **3**
2. **“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında nəzərdə tutulan fəaliyyətlər** **4**
3. **Qanunvericiliyin təkmilləşdirilməsi və müvafiq institusional potensialın gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin təhlili** **6**
   - Qanunvericilik təkmilləşdirilməsi, piratçılıq və kontrafaksiya da daxil olmaqla əqli mülkiyyət hüquqlarının pozulmasına qarşı səmərəli tədbirlərin görülməsi 6
   - Hüquq mühafizə orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulması, onların fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması 11
   - Məhkəmə infrastrukturunun təkmilləşdirilməsi, bu fəaliyyətə elektron xidmətlərin inkorporasiya edilməsi və vətəndaşların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması 15
   - Vətəndaşların (və xüsusən bölgələrdə yaşayanların) hüquqi biliklərinin artırılmasının daim diqqət mərkəzində saxlanılması 17
   - Dövlət qulluqçularının sosial müdafiəsi və sosial təminatı sisteminin gücləndirilməsi 18
   - Korrupsiyaya qarşı mübarizə tədbirlərinin genişləndirilməsi 24
   - Bələdiyyələrin potensialının gücləndirilməsi, bələdiyyə idarəçiliyi sahəsində ixtisaslaşmış kadrların hazırlanması 30
   - Qeyri-hökumət təşkilatlarının, xüsusən bölgələrdə fəaliyyətinin dəstəklənməsi 34
   - Demokratik və şəffaf idarəetmənin mühüm tərkib hissəsi kimi bərabərlik, tərəfsizlik və açıqlıq prinsiplərinə uyğun olaraq, vətəndaşların dövlət tərəfindən yayımlanan məlumatlara çıxış imkanlarının artırılması, dövlət sektorunda bir sıra xidmətlərin müvafiq sahə üzrə ixtisaslaşmış özəl müəssisələrə ötürülməsi 36
   - Dövlət orqanlarında idarəçilik metod və mexanizmlərinin təkmilləşdirilməsi, vətəndaş və təşkilatların xidmətlərdən sadə, asan və sərbəst istifadəsi üzrə kompleks tədbirlərin davam etdirilməsi, elektron kanallar vasitəsilə ictimaiyyətə təqdim edilən dövlət xidmətlərinin sayının artırılması 40
   - Daxili bazarın təhlükəli məhsullardan qorunmasında, ticarətdə texniki maneələrin aradan qaldırılmasında və sahibkarlığın inkişafında əhəmiyyəti böyük olan standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması, təkmilləşdirilməsi və inkişaf etdirilməsi 46
4. **Nəticə və tövsiyələr** **49**

# GİRİŞ

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası 2012-ci ildə qəbul ediləndə Azərbaycan iqtisadi neft gəlirlərinin azalmasının mənfi fəsadlarını yaşamırdı. Həmin dövrdə dünya bazarında neftin yüksək qiyməti ölkəyə böyük valyuta kütləsinin axınını təmin edirdi. Elə bunun nəticəsidir ki, Konsepsiyada hazırda dünyada geniş yayılmış əksmərkəzləşmə islahatlarının aparılmasının, yerli özünüidarənin gücləndirilməsinin vacibliyi yer almayıb. Ümumən götürəndə Konsepsiyanın başlıca strateji məqsədi olaraq Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaq göstərilir. Ancaq mövcud iqtisadi vəziyyət yeni yanaşma tələb edir. Hökumətin xeyli vaxtdır müzakirə etdiyi və qəbul etməyə hazırlaşdığı “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi” də Konsepsiyanın qarşısında qoyulan məqsədin mövcud çağırışlara tam cavab verməməsini sübut edir.

Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrası ümumilikdə 2013-2020-ci illəri əhatə edir. Ancaq hesabat hazırlanarkən 2013-2016-cı illərdə həyata keçirilən tədbirlər qiymətləndirilib və 8 illik fəaliyyətlərin 4 ili monitorinq edilib. Qarşıda daha 4 il var və bu baxımdan qarşıya qoyulan məqsədə çatma səviyyəsini tam qiymətləndirmək mümkün deyil. Dövlət proqramlarının, konsepsiyalarının məqsədinə çatma səviyyəsini düzgün qiymətləndirmək üçün indikatorlar sisteminin işlənib hazırlanması vacibdir. Ancaq İnkişaf Konsepsiyasında məqsədlərin ümumi və yayğın olması qiymətləndirmə prosesində çətinlik yaradır.

Hesabatın hazırlanması prosesində Konsepsiyada nəzərdə tutulmuş məqsədlərə çatmaq üçün qanunvericilik bazasının mütəmadi olaraq təkmilləşdirilməsi və müvafiq institusional potensialın gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər qiymətləndirilib. Sənədə görə, Konsepsiya çərçivəsində nəzərdə tutulmuş hədəflərə çatmaq baxımından institusional potensialın gücləndirilməsi özündə üç əsas istiqaməti - *dövlət sektorunda insan resurslarının inkişafını, "elektron hökumət" fəaliyyətinin genişləndirilməsini, institusional islahatların davam etdirilməsini* ehtiva etməli idi.

Qiymətləndirmə zamanı bu istiqamətlərin icrası prosesində kəskin fərqlərin mövcudluğu özünü göstərdi. "Elektron hökumət" fəaliyyəti ilə bağlı xeyli addımların atılmasına rəğmən institusional islahatlar çox zəif aparılıb. Qanunvericiliyin təkmilləşdirilməsi və müvafiq institusional potensialın gücləndirilməsi istiqamətində elektron kanallar vasitəsilə ictimaiyyətə təqdim edilən dövlət xidmətlərinin sayının artırılması, dövlət qulluqçularının sosial təminatının yaxşılaşdırılması, korrupsiyanın azaldılması sahəsində əhəmiyyətli qanunvericilik aktları qəbul edilib. Ancaq bu addımlar korrupsiyanın azaldılması sahəsində beynəlxalq mövqeyimizin yaxşılaşmasna təsir etməyib.

Konsepsiyada nəzərədə tutulan bəzi sahələrdə nəinki irəliləyiş, hətta geriləmələr müşahidə edilib. Araşdırma göstərdi ki, atılan addımlar əsasən qeyri-hökumət təşkilatlarının fəaliyyətinin pisləşməsi, yerli özünüidarə qurumlarının səlahiyyətlərinin və maliyyə imkanlarının məhdudlaşdırılması istiqamətində atılıb. Həmçinin dövlət sektorunda bir sıra xidmətlərin müvafiq sahə üzrə ixtisaslaşmış özəl müəssisələrə ötürülməsi prosesi baş verməyib.

# “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında nəzərdə tutulan fəaliyyətlər

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası Azərbaycan Respublikası Prezidentinin 2012-ci il “29” dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilib. Fərmana görə, Konsepsiya ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva edir və onun həyata keçirilməsi məqsədli dövlət proqramları vasitəsi ilə gerçəkləşdiriləcəkdir.

Konsepsiyanın başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır. Konsepsiyasının icrası ilə əlaqədar Prezidentin 29 may 2013-cü il tarixli, 2918 saylı Sərəncamı ilə Milli Fəaliyyət Qrupu yaradılıb. Qrupa İqtisadiyyat Nazirliyi rəhbərlik etməklə iqtisadiyyatın müxtəlif sahələrində dövlət siyasətini həyata keçirən 40-a yaxın dövlət qurumu, dövlət şirkəti, fond daxil edilib.

Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrası ümumilikdə 2013-2020-ci illəri əhatə edir. Ancaq hesabat hazırlanarkən 2013-2016-cı[1] illərdə həyata keçirilən tədbirlər qiymətləndirilib.

Konsepsiyada nəzərdə tutulmuş məqsədlərə çatmaq üçün qanunvericilik bazasının mütəmadi olaraq təkmilləşdirilməsi və müvafiq institusional potensialın gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər qiymətləndirilib.

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında[2] nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün qanunvericiliyin təkmilləşdirilməsi və müvafiq institusional potensialın gücləndirilməsi istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub:

- Qanunvericilik təkmilləşdirilməsi, piratçılıq və kontrafaksiya da daxil olmaqla əqli mülkiyyət hüquqlarının pozulmasına qarşı səmərəli tədbirlərin görülməsi;
- Hüquq mühafizə orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulması, onların fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması;
- Məhkəmə infrastrukturunun təkmilləşdirilməsi, bu fəaliyyətə elektron xidmətlərin inkorporasiya edilməsi və vətəndaşların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması;
- Vətəndaşların (və xüsusən bölgələrdə yaşayanların) hüquqi biliklərinin artırılmasının daim diqqət mərkəzində saxlanılması;
- Dövlət qulluqçularının sosial müdafiəsi və sosial təminatı sisteminin gücləndirilməsi, korrupsiyaya qarşı mübarizə tədbirlərinin genişləndirilməsi, bələdiyyələrin potensialının gücləndirilməsi və bələdiyyə idarəçiliyi sahəsində ixtisaslaşmış kadrların hazırlanması, qeyri-hökumət təşkilatlarının, xüsusən bölgələrdə fəaliyyətinin dəstəklənməsi;
- Dövlət resurslarının prioritet hesab olunan dövlət xidmətləri arasında bölgüsünə, səmərəli və qənaətlə istifadə edilməsinə xüsusi diqqətin yetirilməsi;
- Demokratik və şəffaf idarəetmənin mühüm tərkib hissəsi kimi bərabərlik, tərəfsizlik və açıqlıq prinsiplərinə uyğun olaraq, vətəndaşların dövlət tərəfindən yayımlanan

[1] Hesabatın hazırlanması dövrü 2016-cı ilin noyabrın 1-i tarixinə olan vəziyyəti əks etdirir

[2] Konsepsiya Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli, 800 saylı Fərmanı ilə təsdiq edilib

məlumatlara çıxış imkanlarının artırılması, dövlət sektorunda bir sıra xidmətlərin müvafiq sahə üzrə ixtisaslaşmış özəl müəssisələrə ötürülməsi;

- Konsepsiyaya uyğun olaraq, dövlət orqanlarında idarəçilik metod və mexanizmlərinin təkmilləşdirilməsi, vətəndaş və təşkilatların xidmətlərdən sadə, asan və sərbəst istifadəsi üzrə kompleks tədbirlərin davam etdirilməsi, elektron kanallar vasitəsilə ictimaiyyətə təqdim edilən dövlət xidmətlərinin sayının artırılması;
- Daxili bazarın təhlükəli məhsullardan qorunmasında, ticarətdə texniki maneələrin aradan qaldırılmasında və sahibkarlığın inkişafında əhəmiyyəti böyük olan standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması, təkmilləşdirilməsi və inkişaf etdirilməsi;

Konsepsiyaya uyğun olaraq qanunvericiliyin təkmilləşdirilməsi və müvafiq institusional potensialın gücləndirilməsi istiqamətində həyata keçirilmiş tədbirlərin qiymətləndirməsinə diqqət yetirək:

# Qanunvericiliyin təkmilləşdirilməsi və müvafiq institusional potensialın gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin təhlili

## Qanunvericilik təkmilləşdirilməsi, piratçılıq və kontrafaksiya da daxil olmaqla əqli mülkiyyət hüquqlarının pozulmasına qarşı səmərəli tədbirlərin görülməsi

Azərbaycan Respublikasında əqli mülkiyyət hüquqlarının müdafiəsinin təmin edilməsi, əqli mülkiyyət hüquqları sahiblərinin maraqlarının qorunması və bu sahədə hüquqpozmaların, o cümlədən müvafiq əqli mülkiyyət obyektlərinin nüsxələrinin qeyri-qanuni istehsalı və yayılmasının qarşısının alınması ilə bağlı yaranan münasibətlər "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" 22 may 2012-ci il tarixli 365-IVQ saylı Qanunla tənzimləyir. Əqli mülkiyyət sahəsində fəaliyyətləri əlaqələndirən dövlət orqanı isə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyidir.

**"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası**nın icrası çərçivəsində piratçılıq və kontrafaksiya da daxil olmaqla əqli mülkiyyət hüquqlarının pozulmasına qarşı görülmüş tədbirləri aşağıdaı kimi sistemləşdirmək olar:

- ***Əqli mülkiyyət hüquqlarının müdafiəsi istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi***

**30 aprel 2013-cü il tarixli 637-IVQD saylı Qanunla "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununa** dəyişiklik edilib. Dəyişiklik əsasında Qanuna nəşriyyat işi sahəsində əqli mülkiyyət hüquqlarının qorunması və bu sahədə hüquqpozmalara qarşı mübarizə daxil edilib və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılıb.

Elm sahəsində əqli mülkiyyət hüququnun qorunması məqsədilə 14 iyun 2016-cı il tarixində qəbul edilmiş **"Elm haqqında"** Azərbaycan Respublikasının Qanununda əqli mülkiyyət işləri elmi fəaliyyət sahəsində dövlət siyasətinin prinsipi və dövlətin vəzifələri olaraq göstərilib. Qanunda əqli mülkiyyət hüququ elmi etikanın prinsipi hesab edilib, əqli mülkiyyət hüquqlarının tanınması və qorunması üçün vəsatət qaldırmaq elmi işçilərin hüquqları sırasın daxil edilib.

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Reklam haqqında" Azərbaycan Respublikasının qanunları "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun tələblərinə uyğunlaşdırılıb.

- ***Əqli mülkiyyət hüquqlarının müdafiəsi istiqamətində şəffaflıq və hesabatlılığın artırılması üzrə tədbirlər***

Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 8 nömrəli qərarı ilə **"Nəzarət markalarının və beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsindən əldə olunan vəsaitdən istifadə edilməsi və həmin vəsaitdən istifadə haqqında hesabatın dərc olunması"** Qaydası təsdiq edilib. Bu Qayda audiovizual əsərin, fonoqramın, kompyuter proqramının, məlumat toplusunun və kitabın nüsxələrinə yapışdırılan nəzarət markalarının və beynəlxalq standart eyniləşdirmə nömrələrinin (ISBN, ISMN, ISSN, ISAN, ISRC) verilməsindən əldə olunan vəsaitdən istifadə edilməsi və həmin vəsaitdən istifadə haqqında hesabatın dərc olunmasını müəyyən edir.

Qaydaya görə, nəzarət markalarının və beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsindən əldə olunan vəsait Agentliyin büdcədənkənar xüsusi vəsaitlər üzrə xəzinə hesabına köçürülür. Agentlik hər il daxil olmuş vəsaitin miqdarı, məqsədi, hesabat dövründə istifadə olunmuş (xərclənmiş) vəsaitin təyinatı və məbləği, habelə qalıq vəsait barədə məlumatların əks olunduğu illik hesabatı qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

Nəzarət markalarının və beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsinə görə daxil olan vəsaitdən istifadə haqqında rüblük və illik hesabatlar müvafiq olaraq hesabat dövrü başa çatdıqdan sonra ən geci 5 iş günü müddətində Agentliyin internet səhifəsində yerləşdirilir.

- ***Əqli mülkiyyət hüquqlarının müdafiəsi istiqamətində nəzarət tədbirlərinin gücləndirilməsi***

Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 9 nömrəli qərarı ilə **“Nüsxələrinə nəzarət markası yapışdırılması nəzərdə tutulan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompyuter proqramı, məlumat toplusu, kitab) dövlət reyestrinin aparılması” Qaydaları** təsdiq edilib. Bu Qaydalar nəzarət markası yapışdırılan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompyuter proqramı, məlumat toplusu, kitab) dövlət reyestrinin aparılması ilə bağlı məsələləri tənzimləyir.

Dövlət reyestrinin yaradılması müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompyuter proqramı, məlumat toplusu, kitab) nüsxələrinin yayılmasına nəzarətin gücləndirilməsi məqsədi daşıyır. Qaydaya uyğun olaraq Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi tərəfindən Nüsxələrinə nəzarət markası yapışdırılan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin Dövlət Reyestri yaradılır. Reyestrdə audiovizual əsərin, fonoqramın, kompyuter proqramının, məlumat toplusunun və kitabın nüsxələrinə yapışdırılan nəzarət markalarının verilməsi üçün sənədlər, nüsxələri hazırlayan (istehsal edən) və yayan hüquqi və fiziki şəxslər (hüquqi şəxsin təşkilati-hüquqi forması), nüsxələrin adları, seriyası, nömrəsi və verilmə tarixi göstərilməklə, nəzarət markalarının sayı barədə məlumatları özündə əks etdirən dövlət informasiya ehtiyatı formalaşdırılır.

Nazirlər Kabinetinin 2013-cü il 14 mart tarixli 44 nömrəli qərarı ilə **“Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi” Qaydaları** təsdiq edilib. Bu Qaydalar Azərbaycan Respublikasının ərazisində buraxılan kitablara, not yazılarına, dövri nəşrlərə, audiovizual əsərlərə və audio-videoyazılara müvafiq olaraq İSBN, İSMN, İSSN, İSAN, İSRC beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi prosedurlarını müəyyən edir və bu iş Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçən Milli Mərkəzlər tərəfindən həyata keçirilir. Qaydalarda həmçinin beynəlxalq standartların qiyməti əksini tapıb.

Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş **Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları** “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsinə və “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin 1-ci hissəsinin üçüncü bəndinə uyğun olaraq hazırlanıb və nəzarət markasının formasını, uçotu, istifadəsi və verilməsi qaydalarını müəyyən edir. Qaydaya görə, Azərbaycan Respublikasının ərazisində hazırlanan və idxal edilən əqli mülkiyyət məhsulları nəzarət markası ilə markalanmalıdır. Nəzarət markası Müəllif Hüquqları Agentliyi tərəfindən verilir.

- ***Əqli mülkiyyət hüquqlarının müdafiəsi istiqamətində dövlət qurumlarının səlahiyyətlərinin artırılması***

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 287 nömrəli Fərmanı ilə təsdiq edilmiş **"Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə"** Azərbaycan Respublikası Prezidentinin 15 mart 2013-cü il tarixli 847 saylı Fərmanı ilə Müəllif Hüquqları Agentliyi haqqında Əsasnaməyə bir sıra dəyişikliklər edilib. Dəyişikliklər əsasında Agentliyin piratçılığa qarşı mübarizə istiqamətində səlahiyyətləri artırılıb və nəzarət imkanları genişləndirilib. Dəyişiklik əsasında Agentlik aşağıdakı əlavə səlahiyyətlər əldə edib:

- *beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi ilə bağlı işləri təşkil etmək və həyata keçirmək;*
- *müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompyuter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırılması üçün nəzarət markalarının hazırlanmasını təmin etmək və onları istifadəçiyə vermək;*
- *müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompyuter proqramı, məlumat toplusu, kitab) nüsxələrinin nəzarət markaları yapışdırılaraq yayılmasına nəzarət etmək;*
- *nüsxələrinə nəzarət markası yapışdırılması nəzərdə tutulan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompyuter proqramı, məlumat toplusu, kitab) dövlət reyestrini aparır, həmin nüsxələrin yaradılmasının qanuniliyini müəyyənləşdirmək;*
- *müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompyuter proqramı, məlumat toplusu, kitab) nüsxələrinin piratçılıq yolu ilə istehsalına və yayılmasına, habelə nəzarət markası yapışdırılmayan nüsxələrinin yayılmasına qarşı inzibati tədbirlərin təmin olunması məqsədi ilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun protokol tərtib edərək baxılması üçün məhkəməyə göndərir;*
- *Rəqəmsal şəbəkələrdə müəllif, ifaçı və fonoqram istehsalçılarının əmlak hüquqlarından istifadəyə nəzarət etmək, hüquq sahiblərinin mənafelərinə və iradələrinə uyğun olaraq bu hüquqların kollektiv əsasda idarəçiliyini təşkil etmək, hüquqların pozulduğu, o cümlədən hüquqlardan istifadəyə qoyulmuş məhdudiyyətləri təmin edən texniki müdafiə vasitələrinin qeyri-qanuni dağıdıldığı, eləcə də hüquq sahibinin razılığı olmadan hüquqların idarə edilməsi haqqında informasiyanın ləğv edildiyi, yaxud dəyişdirildiyi hallarda hüquq pozuntusuna yol vermiş şəxslərin məsuliyyətə cəlb etmək, habelə onlara məxsus informasiya ehtiyatından istifadənin dayandırılması məqsədi ilə tədbirlər görmək.*

Gömrük Məcəlləsinin 283.3-cü maddəsinə əsasən, **"Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların buraxılışının dayandırılması, buraxılışın dayandırılma müddətinin uzadılması, qəbul edilən qərarlar barədə ərizəçiyə və bəyannaməçiyə məlumat verilməsi" Qaydaları** hazırlanıb. Bu Qaydalar tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların buraxılışının dayandırılması, buraxılışın dayandırılma müddətinin uzadılması, qəbul edilən qərarlar barədə ərizəçiyə və bəyannaməçiyə məlumat verilməsi qaydalarını müəyyən edir. Qaydalar gömrük sərhədindən fiziki şəxslər tərəfindən az miqdarda keçirilən və ya beynəlxalq poçt göndərişləri ilə göndərilən, o cümlədən istehsal və kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan mallara tətbiq edilmir.

**"Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə** Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2014-cü il tarixli 245 saylı Fərmanı ilə nəzarət markalarının qeyri-qanuni yayılmasının qarşısının alınması və vergi nəzarəti zamanı Vergi Məcəlləsinin tələblərinin pozulması ilə bağlı məsələlər Vergilər Nazirliyinə tapşırılıb.

- ***<u>Əqli mülkiyyət hüquqlarının müdafiəsi istiqamətində cəza tədbirlərinin sərtləşdirilməsi</u>***

"Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun icrasının təmin edilməsi və piratçılıqla mübarizəni gücləndirmək məqsədi ilə **"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 30 aprel 2013-cü il tarixli 634-IVQD saylı Qanunla** İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər edilib. Dəyişikliklərə əsasən, nəzarət markası yapışdırılmadan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, kitab) nüsxələrinin kommersiya məqsədi ilə 2 satışı və ya yayılma məqsədi ilə saxlanması, istehsal binasının hüdudlarından kənara çıxarılması, satılması və ya digər üsullarla yayılması hallarına görə hər bir belə nüsxəyə görə fiziki şəxslərə 50 manat, vəzifəli şəxslərə 100 manat, hüquqi şəxslərə 150 manat miqdarında cərimə tətbiq ediləcəkdir.

İnzibati Xətalar Məcəlləsinə edilmiş digər dəyişikliklərdə isə müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırılmaq üçün verilmiş nəzarət markalarının qəsdən məhv edilməsinə, saxtalaşdırılmasına, qeyri-qanuni yolla hazırlanmasına, istifadəsinə və satışına görə fiziki şəxslərə 1 000 (bir min) manat, vəzifəli şəxslərə 2 000 (iki min) manat və hüquqi şəxslər 3000 (üç min) manat miqdarında cərimənin tətbiq edilməsi nəzərdə tutulur.

***<u>Yeni qanunvericilik aktlarının layihələri</u>***

Agentlik tərəfindən Konsepsiyanın icrası çərçivəsində müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan istehsalın (kreativ sənayenin) iqtisadiyyatda payının hesablanması və əqli mülkiyyət aktivlərinin qiymətləndirilməsi ilə bağlı məsələləri tənzimləyən **"Müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan istehsalın (kreativ sənayenin) iqtisadiyyatda payının hesablanması və əqli mülkiyyət aktivlərinin qiymətləndirilməsi Qaydalarının təsdiq edilməsi haqqında"** Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihəsi hazırlanaraq təsdiq üçün təqdim edilib[3].

Bununla yanaşı, **"Məlumat toplularının hüquqi qorunması haqqında"** Azərbaycan Respublikasının Qanunu"na dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsi, **"Müəlliflik hüququ, əlaqəli hüquqlar və digər oxşar əqli mülkiyyət hüquqları obyektlərinin elektron ticarətinin tənzimlənməsi Qaydalarının təsdiq edilməsi haqqında"** Nazirlər Kabinetinin qərar layihəsi, "Əsərlərin dövlət varidatı elan edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsi hazırlanaraq təqdim edilib.

Eyni zamanda **"Piratçılığa qarşı mübarizə üzrə Komissiyanın yaradılması haqqında"** Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsi, **"Müəllif-hüquq lisenziyaları ilə təmin olunan açıq təhsil resurslarının yaradılmasına dair Konsepsiya"** və "Tədbirlər planı" çərçivəsində "Açıq təhsil resursları əqli mülkiyyət mövqeyindən" kitabı, Rəqəmli hüquqların idarə edilməsi üzrə "on-line" lisenziyalaşmaya və "one-stop-shops" formatında rəqəmli hüquqlar üzrə xidmətlərin göstərilməsinə dair Tədbirlər Planı" (2015-2020) hazırlanıb.

---

[3] Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin 2015-ci ildə fəaliyyətinin yekunlarına dair Hesabatı http://copag.gov.az/laws/az/1024.pdf

Agentlyin açıqlamasına görə, piratçılığın səviyyəsinin azaldılması istiqamətində müvafiq dövlət orqanları ilə birgə aparılan tədbirlər nəticəsində kitab nəşri sahəsində piratçılığın səviyyəsi 2014-cü ildə 2005-ci illə müqayisədə 61%-dən 30%- ə, audio-video məhsul bazarında 90%-dən 66%-ə, proqram təminatında 96%-dən 85%-ə düşüb. Bu rəqəmlər Müəllif Hüquqları Agentliyi, eləcə də Beynəlxalq Biznes Proqram Təminatı Alyansı (Business Software Alliance) tərəfindən aparılan monitorinq-müşahidələr nəticəsində müəyyən edilib[4].

Müəllif Hüquqları Agentliyinin sədrinin "01" avqust 2016-cı il tarixli 89 nömrəli əmri ilə **"Müəlliflik hüququ və digər oxşar əqli mülkiyyət sahəsi üzrə Uzunmüddətli Milli Strategiya"** təsdiq edib. Milli Strategiyanın hazırlanmasının əsas məqsədi "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında nəzərdə tutulan müddəalara uyğun olaraq, Azərbaycanda müəllif hüquqları sahəsinin inkişaf perspektivini müəyyənləşdirmək və sahə üzrə dövlət siyasətinin tələblərini aydın şəkildə təsvir edərək, həyata keçirilməsini asanlaşdırmaq, Konsepsiyadan yaranan işlərin ardıcıllığını təmin etməklə onların zəruri icra mexanizmini formalaşdırmaq, hədəf və məqsədlərə nail olmaq üçün layihə və tədbirlər kompleksini hazırlamaq və realizə etməkdən ibarətdir.

Milli Strategiyada bu məqsədlərə nail olmaq üçün müəllif hüquqları sahəsində qanunvericiliyi təkmilləşdirmək, normativ hüquqi bazanı zənginləşdirmək, hüquqların müdafiəsinin təminatına aid yeni mexanizmlər yaratmaq, əqli mülkiyyət hüquqlarının pozulmasına, o cümlədən piratçılıq və kontrafaksiyaya qarşı səmərəli tədbirlər görmək nəzərdə tutulur.

---

[4] http://copag.gov.az/copag/uploads/images/documents//M.STRATEG%C4%B0YA_-_02.08.16_908ebdddb726500e8b1b6723f6f414be.PDF

## Hüquq mühafizə orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulması, onların fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının qəbulundan ötən dövr ərzində hüquq mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Həmin tədbirlər əsasən bir sıra qurumların strukturunun təkmilləşdirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi vasitəsilə idarəetmənin avtomatlaşdırılması, məmur-vətəndaş təmaslarının azaldılması, hüquq mühafizə orqanlarının maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində olub.

*İnstitusional potensialın gücləndirilməsi istiqamətində atılan addımlar:*

- 14 fevral 2014-cü il tarixdə **"Prokurorluq haqqında"** və **"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanunlara** dəyişikliklər edilib. Dəyişikliyə əsasən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinə Baş İdarə statusu verilib. "Prokurorluq haqqında" qanuna xüsusi olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə həsr edilmiş yeni maddə əlavə edilərək qurumun statusu, vəzifə və səlahiyyətləri konkretləşdirilmişdir. Yeni qanunla Baş İdarənin rəisinə Baş prokurorun müavini statusu verilib. Yeni qanuna əsasən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin tərkibində idarə, şöbə və digər struktur bölmələr yaradıla bilər. Bunda məqsəd qurumun fəaliyyətinin daha çevik və məqsədyönlü təşkilinə imkan yaratmaqdır.

  *Əhəmiyyəti:* Dəyişiklik nəticəsində qurumun statusu, vəzifə və səlahiyyətləri konkretləşdirilmişdir. Bu, həmin quruma korrupsiya hallarına qarşı daha səmərəli mübarizə üçün geniş imkanlar verir.

- Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2014-cü il tarixli 234 nömrəli fərmanı ilə **Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni statusu ilə bağlı onun Əsasnaməsində müvafiq dəyişikliklər edilib.** Bu ixtisaslaşdırılmış prokurorluq orqanının vəzifələri daha da genişləndirimişdir. Bu vəzifələr sırasına korrupsiyaya qarşı mübarizənin vəziyyəti öyrənilərkən və korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması üçün təklif və tövsiyələr hazırlanarkən normativ hüquqi aktlarda və onların layihələrində müəyyən edilmiş korrupsiya hüquqpozmalarına şərait yaradan halların aradan qaldırılması üçün Baş prokuror qarşısında məsələ qaldırılması da aid edilmişdir.

  *Əhəmiyyəti:* Bu, normativ hüquqi aktlarda korrupsiya hüquqpozmalarına şərait yaradan hallar barədə məlumatlarla əlaqədar Baş Prokurorluq tərəfindən qanunvericilik təşəbbüsü hüququndan istifadə etməklə qanunvericilikdə müvafiq dəyişikliyin edilməsinə dair təkliflərin hazırlanıb Milli Məclisə təqdim edilməsinə imkan verəcək.

- Azərbaycan Respublikasında xüsusi xidmət orqanlarının fəaliyyətinin səmərəliliyini artırmaq və dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədilə **“Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin yaradılması haqqında”** Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2015-ci il tarixli Fərmanı ilə Milli Təhlükəsizlik Nazirliyinin əsasında Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti yaradılıb.

*Hüquq mühafizə orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulması istiqamətində atılan addımlar:*

- Prokurorluq orqanlarında istifadədə olan **"Elektron Sənəd Dövriyyəsi Proqramı"nın əvvəlkindən fərqlənən yeni versiyası hazırlanmış, "Elektron cinayət" Proqramından istifadə qaydaları hazırlanaraq Baş Prokurorluq üzrə müvafiq əmrlə təsdiq edilib**. "Elektron cinayət" Proqramında cinayət işi üzrə təqibin həyata keçirilməsinin bütün mərhələləri, cinayət haqqında məlumat daxil olduğu andan iş üzrə cinayət prosesi başa çatanadək, o cümlədən bütün istintaq və prosessual hərəkətlər, işin gedişatı, işlə bağlı qəbul edilmiş məhkəmə və istintaq orqanlarının qərarları tam və ardıcıl olaraq əks olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" 13 fevral 2014-cü il tarixli 268 nömrəli sərəncamında "Elektron məhkəmə" informasiya sistemi ilə Baş Prokurorluqda tətbiq olunan informasiya sisteminin inteqrasiyası nəzərdə tutulmuşdur.

  *Əhəmiyyəti:* Bu tədbir qurumun texniki-texnoloji strukturunun təkmilləşdirilməsi, texnoloji imkanlarının genişləndirilməsi, sistem vasitəsilə ötürülən məlumatların tamlığının, informasiya ehtiyatlarının və məlumat mübadiləsinin təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir.

- **Baş Prokurorluğun veb-saytında yeni "müraciətlərə onlayn baxılması" funksiyası (bölməsi) yaradılmaqla onun "Elektron Sənəd Dövriyyəsi Proqramı"nın "Vətəndaşa cavab" bölməsi ilə əlaqələndirilməsi həyata keçirilib.**

  *Əhəmiyyəti:* Müraciətlərə onlayn baxılması vasitəsilə prokurorluğa müraciət etmiş vətəndaşlar Baş Prokurorluğun veb-saytına (www.prokurorluq.gov.az) daxil olaraq müraciət müəllifinə proqram tərəfindən avtomatik olaraq göndərilmiş bildirişdəki koddan və xüsusi paroldan istifadə etməklə öz müraciətlərinə verilən cavabı ilkin olaraq elektron variantda əldə edə biləcəklər.

- Daxili İşlər Nazirliyinin Kollegiyasının "14" yanvar 2013-cü il tarixli Q1-001-13 saylı Qərarı ilə **"Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat"** təsdiq edilib. Bu Təlimat müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi, müşayiəti, habelə xidmətin təşkili qaydalarını müəyyən edir. Təlimatda tutulmuş və ya həbs edilmiş şəxslərin saxlanılması qanunun aliliyi, hər kəsin qanun qarşısında bərabər olması, humanizm və insan ləyaqətinə hörmət prinsipləri əsasında həyata keçirilməsi qeyd edilir.

- **"Təhlükəsiz şəhər"** avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqi çərçivəsində 2013-cü ildə 1779 nöqtə üzrə 6918 (1320 hərəkətli, 5598 sabit) kamera quraşdırılaraq istifadəyə verilib. 2014-cü ildə 2039 nöqtədə 8085 kamera, 2015-ci ildə 2655 nöqtədə 9886 kamera quraşdırılıb. Bu sistemin tətbiqi ilə aşkarlanmış hadisələrin sayı əvvəlki illə müqayisədə 2013-cü ildə 25 faiz, 2014-cü ildə 46 faiz artıb, 2015-ci ildə isə 7,5 faiz azalıb[5].

*Hüquq mühafizə orqanlarının fəaliyyətinin şəffaflığın tələblərə uyğun qurulması istiqamətində atılan addımlar:*

- **4 mart 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.** Sərəncamda Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məmur-vətəndaş təmasının minimuma endirilməsi və elektron gömrük xidmətlərinin

[5] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü ildə fəaliyyəti haqqında hesabat, səh.375

daha da genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Gömrük Məcəlləsində nəzərdə tutulmuş bütün bəyannamələrin gömrük orqanlarında elektron formada qəbulunu iki ay müddətində təmin etmək, elektron xidmətlər göstərilməsi ilə əlaqədar olaraq, müvafiq sahələrdə ayrı-ayrı dövlət orqanları ilə qarşılıqlı elektron informasiya mübadiləsinin həyata keçirilməsini təmin etmək tapşırılır. Bundan əlavə, Sərəncamda gömrük nəzarətinin səmərəliliyini artırmaq, gömrük sərhədindən mal dövriyyəsini sürətləndirmək, vaxt itkisini aradan qaldırmaq və s. məqsədi ilə tədbirlərin görülməsi də nəzərdə tutulur.

*Əhəmiyyəti:* Nəzərdə tutulan tədbirlər dövlət sərhədinin buraxılış məntəqələrinin buraxılış qabiliyyətini artırmaq və vətəndaşların rahatlığını təmin etmək üçün malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin daha da təkmilləşdirilməsi, ticarət-iqtisadi münasibətlərdə idxal-ixrac əməliyyatlarının rəsmiləşdirilməsinin sadələşdirilməsi, bütün istiqamətlərdə gömrük işinin beynəlxalq standartlara uyğun aparılması, normativ hüquqi bazanın yaradılması, ticarətin asanlaşdırılması, gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsi baxımından əhəmiyyətli ola bilər.

- Ədliyyə Nazirliyi Kollegiyasının 30 mart 2015-ci il tarixli 1-N saylı Qərarı ilə **"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində informasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları"** təsdiq edilib. "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 1.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmış bu Qaydalar ədliyyə orqanlarında, habelə Ədliyyə Nazirliyi tərəfindən aparılan elektron informasiya ehtiyatlarında mövcud olan informasiyalardan hamı tərəfindən sərbəst və maneəsiz şəkildə, bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında əldə olunmasının təmin edilməsi üçün Ədliyyə Nazirliyinin daxili icraat qaydalarını tənzimləyir.
- Daxili İşlər Nazirliyinin Kollegiyasının 04 dekabr 2015-ci il tarixli, Q63-001-15 saylı Qərarı ilə **«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları»** təsdiq edilib. Bu Qaydalar daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün müsabiqənin elan edilməsi, namizədlərlə müsabiqənin keçirilməsi və yekunlarına dair qərarın qəbul edilməsi məsələlərini tənzimləyir. Qaydalara görə, daxili işlər orqanlarında müvafiq vakant ştat vahidləri olduqda, xidmətə qəbul ilə əlaqədar kütləvi informasiya vasitələrində və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin internet saytında elan verilir.
- Hüquq mühafizə orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulması, onların fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması Açıq Hökumt Təşəbbüsü çərçivəsində hazırlanmış Fəaliyyət planlarında da nəzərə alınıb. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş **Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı**na bəzi fəaliyyətlər daxil edilib. Azərbaycan Respublikasının Baş Prokurorluğu nəzdində fəaliyyət göstərən "161 - qaynar xətt" əlaqə mərkəzinin texniki və insan resursu imkanlarının genişləndirilməsi, mərkəzə daxil olmuş məlumatlarla əlaqədar operativ tədbirlər görülməsinin təmin edilməsi, daxil olmuş müraciətlərlə bağlı statistik və analitik məlumatların dərc edilməsi Planda öhdəlik kimi Baş Prokurorluğa təhkim edilib.

Konsepsiyanın icra olunduğu 2013-2016-cı illərdə hüquq mühafizə orqanlarının fəaliyyətində şəffaflıq və açıqlığın artırılması istiqamətində addımlar atılsa da bəzi addımların atımasına ehtiyac var.

Azərbaycan Respublikası Prezidentinin 18 noyabr 2014-cü il tarixli 869 nömrəli Sərəncamı ilə **“Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikasının prokurorluq işçilərinin və prokurorluq orqanlarında digər vəzifələr tutan işçilərin ştat sayı həddi”** təsdiq edilib və bununla da əvvəlki Sərəncam (2008-ci il 6 mart tarixli 2709 nömrəli) qüvvədən düşüb. Ancaq prokurorluq işçilərinin ştat sayı həddi barədə məlumatlar ictimaiyyət üçün açıq deyil. Məlumatların məhdud açıqlanması nəticsəində sonuncu Sərəncamda dəyişikliyin mahiyyətinin nədən ibarət olduğunu müəyyənləşdirmək, onu səmərəsini, şəffaflığa təsirini qiymətləndirmək mümkün olmur.

## Məhkəmə infrastrukturunun təkmilləşdirilməsi, bu fəaliyyətə elektron xidmətlərin inkorporasiya edilməsi və vətəndaşların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının qəbulundan ötən dövr ərzində məhkəmə infrastrukturunun təkmilləşdirilməsi istiqamətində bir sıra addımlar atılıb. Ən mühüm tədbirlərdən biri məhkəmələr üçün yeni binaların inşası, binaların müasir avadanlıqlarla təchiz edilməsi olub. Bundan əlavə, elektron informasiya sisteminin yaradılması vasitəsilə məhkəmələrin fəaliyyətinin bir sıra istiqamətlərinin avtomatlaşdırılması kimi mühüm işlərin görülməsi də qeyd olunmalıdır.

- **Azərbaycan Respublikasının Prezidenti 13 fevral 2014-cü ildə "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncam imzalayıb.** Sərəncama əsasən "Elektron məhkəmə"informasiya sistemi ərizə, şikayət və digər sənədlərin elektron formada qəbulunu, cinayət işləri, mülki, inzibati, iqtisadi mübahisələrə dair və inzibati xətalar haqqında işlər üzrə icraatın elektron qaydada aparılmasını və sənədlərin elektron dövriyyəsini, məhkəmə prosesində iştirak edən şəxslərə məlumatların elektron qaydada (elektron poçt, SMS məlumatlandırma və s.) çatdırılmasını, məhkəmə proseslərinin audio, video və digər yazan texniki vasitələrdən istifadə etməklə qeydə alınmasını və onları onlayn rejimdə müşahidə etmək imkanının yaradılmasını, sistemdə proses iştirakçısının iştirak etdiyi iş üzrə prosesin gedişi, çıxarılan qərarlar, onların icra vəziyyəti, onlardan verilən şikayət və ya protestlər barədə məlumat almaq imkanlarına malik "şəxsi kabineti"nin yaradılmasını və s. təmin etməlidir.

**Əhəmiyyəti:** Müasir texnologiyaların məhkəmələrin fəaliyyətində tətbiqi ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, korrupsiyaya şərait yaradan birbaşa təmasların minimuma endirilməsinə, aşkarlıq və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin səmərəliliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin olunmasına şərait yarada bilər.

*<u>Vətəndaşların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması istiqamətində atılmış addımlar:</u>*

Vətəndaşların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması istiqamətində qanunvericilik baxımından ciddi addımlar atılmayıb. Qəbul edilmiş yeni qanunlar əhalinin məhkəmə qaydasında şikayət etmək hüququ verib.

- 30 sentyabr 2015-ci il tarixdə qəbul edilmiş **"Vətəndaşların müraciətləri haqqında"** Qanun Azərbaycan Respublikası vətəndaşlarının müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir, vəzifəli şəxslərin müraciətlərə baxması qaydasını müəyyən edir. Qanuna görə, müraciətinə baxılan vətəndaş müraciət barəsində qəbul edilmiş qərarla razılaşmadıqda həmin qərardan inzibati və (və ya) məhkəmə qaydasında şikayət vermək hüququ var.

- Ölkə Prezidentinin 20 oktyabr 2015-ci il tarixdə imzaladığı **"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında"** Qanunla sahibkarların bu Qanunun tələbləri pozulmaqla həyata keçirilən yoxlamalardan

müvafiq icra hakimiyyəti orqanına, prokurorluq orqanlarına, habelə inzibati və məhkəmə qaydasında şikayət vermək hüququ təsbit edilib.

- Prezident **"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2016-cı il 30 sentyabr tarixli qanunun tətbiqi barədə sərəncam imzalayıb.** Bu qanun 2017-ci il yanvarın 1-dən qüvvəyə minir. Dəyişikliklərə əsasən, Məcəlləyə aşağıdakı məzmunda 4.4-cü, 138.5-ci və 272.4-1-ci maddələr əlavə edilir:

  "4.4. İqtisadi mübahisələr ilə bağlı iddia ərizələri, ərizələr, şikayətlər və digər sənədlər məhkəməyə yazılı formada və ya "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinet vasitəsilə "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş elektron sənəd formasında verilə bilər.

  138.5. İqtisadi mübahisələr üzrə işdə iştirak edən şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə bildirişləri bu şəxslərin həmin sistemdə yaradılmış elektron kabinetlərində yerləşdirilir və onlara bu barədə məlumat elektron qaydada (elektron poçt və ya SMS vasitəsilə) çatdırılır.

  272.4-1. İqtisadi mübahisələr üzrə məhkəmə iclaslarının fasiləsiz video-audio yazısı aparılır. Məhkəmə iclasında sədrlik edən tərəfləri və işdə iştirak edən digər şəxsləri bu barədə xəbərdar edir. Məhkəmə iclasının video-audio yazısına dair məlumat məhkəmə iclasının protokolunda göstərilir və həmin yazı maddi daşıyıcıda protokola əlavə olunur. İşdə iştirak edən şəxslər məhkəmə iclasının video-audio yazısı ilə tanış olmaq hüququna malikdirlər.".

*Məhkəmə infrastrukturunun təkmilləşdirilməsi*

- **Şəki Məhkəmə Kompleksi.** 2012 (noyabr) – 2015 (oktyabr) tarixlərində Şəki Məhkəmə Kompleksi tikilərək istifaəyə verilib. Dünya Bankı ilə birgə həyata keçirilən layihə çərçivəsində inşa olunmuş Kompleksdə Şəki Apelyasiya Məhkəməsi, Şəki İnzibati-İqtisadi Məhkəməsi, Şəki Ağır Cinayətlər Məhkəməsi və Şəki Rayon Məhkəməsi yerləşir. Burada 250 nəfər, o cümlədən 42 hakim, 170-dən çox məhkəmə aparatı əməkdaşı və 35 ədliyyə işçisi çalışacaq. Kompleksin əsas binasında 16 məhkəmə iclas zalı – cinayət işlərinin baxıldığı 7 və mülki işlərin baxıldığı 9 zal fəaliyyət göstərir[6].
- **Sabunçu Məhkəmə Kompleksi.** Ümumi sahəsi 9 min kvadratmetr olan yeddimərtəbəli binasının inşasına 2012-ci ilin oktyabrında başlanılıb, 2015-ci ilin oktyabrında istifadəyə verilib. Sabunçu Məhkəmə Kompleksi təxminən 1,3 milyon əhaliyə xidmət göstərəcək. Kompleksdə 150 nəfər, o cümlədən 21 hakim, 100 məhkəmə aparatı əməkdaşı və 30-dək ədliyyə işçisi çalışacaq. Kompleksdə 14 məhkəmə iclas zalı – cinayət işlərinin baxıldığı 4 və mülki işlərin baxıldığı 10 zal fəaliyyət göstərir[7].

[6] http://www.president.az/articles/16650
[7] http://www.president.az/articles/16432

## Vətəndaşların (və xüsusən bölgələrdə yaşayanların) hüquqi biliklərinin artırılmasının daim diqqət mərkəzində saxlanılması

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının qəbulundan ötən dövr ərzində vətəndaşların hüquqi biliklərinin artırılması ilə bağlı hər hansı konseptual sənəd qəbul edilməyib. Bu fəaliyyət bir sıra dövlət qurumlarının öz təşəbbüsü ilə həyata keçirilib. Qeyri-hökumət təşkilatlarının fəaliyyətinin ciddi məhdudlaşdırılması fonunda bu istiqamətdə əsas təşəbbüskar kimi İnsan Hüquqları üzrə Müvəkkil institutu nəzərə çarpır.

**Vətəndaşların hüquqi biliklərinin artırılması ilə bağlı mərkəzləşdirilmiş fəaliyyəti nəzərdə tutan hər hansı normativ sənəd yoxdur. Bu istiqamətdə həyata keçirilən fəaliyyətlər sasən Ombudsmanın Milli Məclisə təqdim etdiyi illik hesabatlarda öz əksini tapıb.** Hesabatlarda qeyd olunur ki, Müvəkkilin təşəbbüsü ilə 2013-2015-ci illərdə “18 iyun - Milli İnsan Hüquqları Günü”, “10 dekabr - Ümumdünya İnsan Hüquqları Günü”, “21 sentyabr - Beynəlxalq Sülh Günü”, 20 noyabr - Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsi tarixləri ərəfəsində dövlət qurumlarının, rayon və şəhər icra hakimiyyətlərinin, vətəndaş cəmiyyəti təsisatlarını, icmaları cəlb etməklə elan olunan aylıqlar çərçivəsində tədbirlər həyata keçirilib, müvafiq dövlət qurumlarında, təhsil ocaqlarında insan hüquqlarına dair seminar və treninqlər təşkil olunub.

2013-cü ildə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı nəzdində fəaliyyət göstərən Beynəlxalq Koordinasiya Komitəsi ilə qurulmuş əməkdaşlıq nəticəsində Azərbaycanda məcburi köçkünlərlə İştirakçı Qiymətləndirmə üzrə Proqram çərçivəsində BMT QAK-ın Bakı ofisində görüşlər keçirilib, seminar təşkil olunub. ATƏT-lə səmərəli əməkdaşlıq çərçivəsində onun Bakı Ofisi və Avropa Şurası ilə əməkdaşlıqda “Tutulma və həbsə dair beynəlxalq standartlar”, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Qanunun tətbiqi və pis rəftara qarşı mübarizə” mövzusunda təlimlər keçirilib.

2014-cü ildə BMT-nin Əhali Fondu ilə birlikdə “Məişət zorakılığı ilə mübarizə, cinsi və reproduktiv sağlamlıq hüquqları”nın insan hüquqları baxımından təmini vəziyyətinə dair dövlət qurumları və vətəndaş cəmiyyəti üzvləri üçün silsilə treninqlər keçirilib. 2015-ci ildə MFP-nin icrası, təbliği və tətbiqi vəziyyətinin öyrənilməsi, həmçinin seçki hüququ ilə bağlı əhalinin maarifləndirilməsi məqsədilə Mərkəzi Seçki Komissiyası (MSK) ilə birgə Şəki, Gəncə, Bərdə, Cəlilabad və Qubada ölkənin 54 şəhər və rayonu əhatə olunmaqla silsilə regional ictimai dinləmələr keçirilib. Həmin tədbirlərdə MSK-nın əməkdaşı, şəhər və rayonlar üzrə icra hakimiyyəti və bələdiyyələrin, dairə və məntəqə seçki komissiyalarının, KİV-lərin, yerli QHT-lərin, icmaların nümayəndələri iştirak ediblər. Müvəkkilin uşaq hüquqları üzrə resurs mərkəzi olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsində və onun nəzdində “Azərbaycan Yurdum Mənim” devizi ilə fəaliyyət göstərən “Liderlik məktəbi”ndə hər il olduğu kimi müntəzəm olaraq uşaqların iştirakı ilə Uşaq Hüquqları Konvensiyasının müddəalarına əsaslanan treninqlər, vətənpərvərlik ruhunda maarifləndirmə tədbirləri keçirilib, onların problemləri müzakirə olunub və Şəbəkə üzvlərinin asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədilə muzeylərə, tarixi yerlərə səfərlər təşkil edilib.

**Əhəmiyyəti:** Qeyd olunan tədbirlər əhalinin maarifləndirilməsi baxımından əhəmiyyətlidir. Lakin bu tədbirlər ümumi maarifləndirmə strategiyasının tərkib hissəsi kimi təşkil edilərsə və ehtiyaclılığa əsaslanarsa daha səmərəli və faydalı ola bilər.

## Dövlət qulluqçularının sosial müdafiəsi və sosial təminatı sisteminin gücləndirilməsi

Konsepsiyada nəzərdə tutulduğu kimi dövlət qulluqçularının sosial müdafiəsi və sosial təminatı sisteminin gücləndirilməsi üçün bir sıra addımlar atılıb. Sosial müdafiənin və sosial təminat sisteminin gücləndirilmsi əsasən aylıq ödənişlərin artmasında özünü büruzə verib. 2013-2016-cı illərdə dövlət qulluqçuların həm ixtisas dərəcəsinə, həm də aylıq vəzifə maaşlarına görə artım baş verib. Bu artımları aşağıdakı kimi sistemləşdirmək olar:

*Vəzifə maaşına ixtisas dərəcələrinə görə ödənilən aylıq əlavə haqlar artırılıb.*

Azərbaycan Respublikası Prezidentinin 2 dekabr 2013-cü il tarixdə imzaladığı 39 saylı Fərman əsasında **Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydalarına**[8] dəyişiklik edilib. Dəyişikliyə əsasında ixtisas dərəcələrinin verildiyi gündən başlayaraq dövlət qulluqçusuna vəzifə maaşına ixtisas dərəcələrinə görə hər ay ödənilən əlavə haqların məbləği artırılıb.

Fərman əsasında dövlət qulluqçularının vəzifə maaşına ixtisas dərəcələrinə görə ödənilən aylıq haqq orta hesabla 120% artırılıb. Bu, 12 il müddət ərzində ilk artım olub. Bundan əvvəl əlavə haqların məbləği 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanla müəyyənləşdirilmişdi. Dövlət qulluqçuları 1 dekabr 2013-cü il tarixdən etibarən aşağıdakı məbləğdə əlavə haqlar alırlar **(Cədvəl 1)**

**Cədvəl 1**

**Dövlət qulluqçularının vəzifə maaşına ixtisas dərəcələrinə görə ödənilən aylıq əlavə haqqın məbləğinin dəyişməsi**

| Dövlət qulluqçusunun ixtisas dərəcəsi | Vəzifə maaşına ixtisas dərəcələrinə görə ödənilən aylıq əlavə haqqın məbləği (manatla) | | Artım, faizlə |
|---|---|---|---|
| | 2001-ci il 3 sentyabr tarixli 569 saylı Fərman | 2 dekabr 2013-cü il tarixli 39 saylı Fərmanı | |
| | | | |
| 1. Həqiqi dövlət müşaviri | 65 | 200 | 208 |
| 2. 1-ci dərəcə dövlət müşaviri | 60 | 180 | 200 |
| 3. 2-ci dərəcə dövlət müşaviri | 58 | 160 | 176 |
| 4. 3-cü dərəcə dövlət müşaviri | 56 | 145 | 159 |
| 5. Dövlət qulluğunun baş müşaviri | 46 | 130 | 183 |
| 6. Dövlət qulluğunun müşaviri | 44 | 115 | 161 |
| 7. Dövlət qulluğunun kiçik müşaviri | 42 | 100 | 138 |
| 8. 1-ci dərəcə dövlət qulluqçusu | 38 | 80 | 111 |
| 9. 2-ci dərəcə dövlət qulluqçusu | 34 | 65 | 91 |
| 10. 3-cü dərəcə dövlət qulluqçusu | 30 | 55 | 83 |

[8] Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı ilə təsdiq edilib

| | | | |
|---|---|---|---|
| 11. Kiçik dövlət qulluqçusu | 26 | 45 | 73 |
| 12. Dövlət qulluğunun baş referenti | 22 | 40 | 82 |
| 13. Dövlət qulluğunun böyük referenti | 18 | 35 | 94 |
| 14. Dövlət qulluğunun 1-ci dərəcə referenti | 16 | 30 | 88 |
| 15. Dövlət qulluğunun 2-ci dərəcə referenti | 14 | 25 | 79 |
| 16. Dövlət qulluğunun 3-cü dərəcə referenti | 12 | 20 | 67 |
| 17. Dövlət qulluğunun kiçik referenti | 10 | 15 | 50 |

**1-ci Cədvəl**dən göründüyü kimi ən çox artım ən yüksək ixtisas dərəcəsi olan həqiqi dövlət müşavirlərinin (208%), ən az artım isə ən aşağı ixtisas dərəcəsi olan dövlət qulluğunun kiçik referentlərinin (50%) vəzifə maaşında baş verib. İxtisas dərəcəsi azaldıqca artım səviyyəsində də azalma baş verib.

"Dövlət qulluğu haqqında" Qanunun 16-cı maddəsinə görə, dövlət qulluqçusunun ixtisas dərəcəsi onun ixtisas səviyyəsini göstərir, vəzifə maaşına əlavə haqq almaq və sosial təminatlardan istifadə etmək hüququnu verir.

*Dövlət qulluqçularının aylıq vəzifə maaşları artıb*

2013-cü ildə dövlət qulluqçularının aylıq vəzifə maaşının minimum məbləği orta hesabla 34% artırılıb. **"Dövlət qulluqçularının əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 iyul tarixli 2934 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2 dekabr 2013-cü il tarixli 135 saylı Sərəncamı ilə** dövlət orqanlarında (Azərbaycan Respublikasının xaricdə olan diplomatik nümayəndəlikləri, konsulluqları və digər orqanların nümayəndəlikləri istisna olmaqla) qulluq edən dövlət qulluqçularının aylıq vəzifə maaşının minimum məbləği inzibati vəzifələr üçün 175 manatdan 250 manata (artım 43%), yardımçı vəzifələr üçün 120 manatdan 150 manata (artım 25%) qaldırılıb.

Bundan başqa Azərbaycan Respublikasında dövlət qulluqçularının aylıq vəzifə maaşları 2 dekabr 2013-cü il tarixli 135 saylı Sərəncam əsasında 2013-cü il dekabr ayının 1-dən etibarən aşağıdakı həcmdə artırılıb.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin dövlət qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 16-17% artrılıb. **(Cədvəl 2 və 3)**

**Cədvəl 2**

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dövlət qulluqçularının aylıq vəzifə maaşları**

| **Vəzifələrin adları** | **Vəzifə maaşları (manat)** | | **Artım, faizlə** |
|---|---|---|---|
| | **2008-ci il 9 iyul tarixli 2934 saylı Sərəncam** | **2 dekabr 2013-cü il tarixli 135 saylı Sərəncam** | |
| | | | |
| **1** | **2** | **3** | **4** |
| **İnzibati vəzifələr üzrə:** | | | |

| | | | |
|---|---|---|---|
| Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri | 1900 | 2200 | 16 |
| Azərbaycan Respublikasının Dövlət müşaviri | 1660 | 1925 | 16 |
| Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini | - | 1860 | |
| Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdiri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi, Azərbaycan Respublikası Prezidentinin Protokol Xidmətinin rəisi | 1500 | 1750 | 17 |
| Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında şöbə müdirinin müavini, Azərbaycan Respublikası Prezidentinin Protokol Xidməti rəisinin müavini | 1300 | 1510 | 16 |
| Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin köməkçisi | 1230 | 1430 | 16 |
| Sektor müdiri | 1200 | 1400 | 17 |
| Baş məsləhətçi | 1150 | 1340 | 17 |
| Böyük məsləhətçi, Azərbaycan Respublikası Dövlət müşavirinin köməkçisi | 1100 | 1280 | 16 |
| Aparıcı məsləhətçi | 1050 | 1220 | 16 |
| Məsləhətçi | 1000 | 1160 | 16 |
| **Yardımçı vəzifələr üzrə:** | | | |
| Baş mütəxəssis (korrektor, stenoqrafçı, arxiv qeydiyyatçısı, montajçı, sürücü, fotoqraf, videooperator, kinooperator, qrup rəhbəri və s.) | 510 | 595 | 17 |
| Böyük mütəxəssis (makinaçı, inspektor, kitabxanaçı, xəzinədar, komendant, anbar müdiri və s.) | 450 | 525 | 17 |
| Aparıcı mütəxəssis (kargüzar, katibə, ekspeditor və s.) | 390 | 455 | 17 |
| Mütəxəssis (kuryer, ixtisas dərəcəsi olan fəhlə və s.) | 330 | 385 | 17 |

**Cədvəl 3**

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin dövlət qulluqçularının aylıq vəzifə maaşları**

| **Vəzifələrin adları** | **Vəzifə maaşları (manat)** | | **Artım, faizlə** |
|---|---|---|---|
| | **2008-ci il 9 iyul tarixli 2934 nömrəli Sərəncam** | **2 dekabr 2013-cü il tarixli 135 saylı Sərəncam** | |

| 1 | | 2 | |
|---|---|---|---|
| **İnzibati vəzifələr üzrə:** | | | |
| Azərbaycan Respublikası Prezidentinin işlər müdiri, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin rəisi | 1550 | 1800 | 16 |
| Azərbaycan Respublikası Prezidentinin işlər müdirinin birinci müavini, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti rəisinin birinci müavini | 1450 | 1680 | 16 |
| Azərbaycan Respublikası Prezidentinin işlər müdirinin müavini, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidməti rəisinin müavini | 1350 | 1570 | 16 |
| Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində şöbə müdiri, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində şöbə müdiri | 1200 | 1400 | 17 |
| Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatların rəhbərləri | 1200 | 1400 | 17 |
| Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində şöbə müdirinin müavini, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində şöbə müdirinin müavini | 1050 | 1220 | 16 |
| Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatların rəhbərlərinin müavinləri | 1050 | 1220 | 16 |
| Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində sektor müdiri, baş mühasib, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində sektor müdiri, baş mühasib | 1000 | 1160 | 16 |
| Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatlarda sektor müdiri, baş mühasib | 1000 | 1160 | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində:** | | | |
| baş məsləhətçi | - | 1140 | |
| böyük məsləhətçi, Azərbaycan Respublikası Prezidentinin işlər müdirinin köməkçisi | - | 1120 | |
| aparıcı məsləhətçi | - | 1080 | |
| məsləhətçi | - | 1050 | |

| Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusuna malik olan təşkilatlarda: | | | |
|---|---|---|---|
| baş məsləhətçi | 980 | 1140 | 16 |
| böyük məsləhətçi | 960 | 1120 | 17 |
| aparıcı məsləhətçi | 930 | 1080 | 16 |
| məsləhətçi | 900 | 1050 | 17 |
| **Yardımçı vəzifələr üzrə:** | | | |
| Baş mütəxəssis (korrektor, stenoqrafçı, arxiv qeydiyyatçısı, montajçı, sürücü, fotoqraf, videooperator, kinooperator, qrup rəhbəri və s.) | 510 | 595 | 17 |
| Böyük mütəxəssis (makinaçı, inspektor, kitabxanaçı, xəzinədar, komendant, anbar müdiri və s.) | 450 | 525 | 17 |
| Aparıcı mütəxəssis (kargüzar, katibə, ekspeditor və s.) | 390 | 455 | 17 |
| Mütəxəssis (kuryer, ixtisas dərəcəsi olan fəhlə və s.) | 330 | 385 | 17 |

Azərbaycan Respublikası Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının Katibliyi işçilərinin aylıq vəzifə maaşları artırılıb.

**Cədvəl 4**

**Azərbaycan Respublikası Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının Katibliyi işçilərinin aylıq vəzifə maaşları**

| Vəzifələrin adları | Vəzifə maaşları (manat) | | Artım, faizlə |
|---|---|---|---|
| | 2008-ci il 9 iyul tarixli 2934 nömrəli Sərəncam | 2 dekabr 2013-cü il tarixli 135 saylı Sərəncam | |
| | | | |
| Azərbaycan Respublikası Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının Katibi | 1470 | 1710 | 16 |
| Baş məsləhətçi | 712 | 830 | 17 |
| Böyük məsləhətçi | 682 | 795 | 17 |
| Aparıcı məsləhətçi | 650 | 760 | 17 |
| Məsləhətçi | 627 | 730 | 16 |

Fərmanla həmçinin inzibati və yardımçı vəzifələrin təsnifatı üzrə dövlət qulluqçularının maaşları təxminən 15-20% artırılıb. **(ƏLAVƏ 1)**

Sərəncama görə, Azərbaycan Respublikasının prokurorluq orqanlarında çalışan dövlət qulluqçuları üçün bu Sərəncamla müəyyən edilən aylıq vəzifə maaşlarının məbləği mövcud aylıq

vəzifə maaşlarından az olduğu halda, onlara həmin orqanda həmin vəzifədə işlədikləri dövr ərzində vəzifə maaşları arasındakı fərq ödənilir.

*Hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçularının əhatə dairəsi genişlənib*

Qanunvericiliyə edilmiş dəyişikliklər əsasında hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqq alan dövlət qulluqçularının əhatə dairəsi bir qədər genişlənmişdir. **“Hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçularının siyahısı”nın və hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın məbləğinin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2008-ci il tarixli 776 saylı Fərmanı**na əsasən, hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə aylıq vəzifə maaşının 15 faizi məbləğində əlavə haqq ödənilir.

1 yanvar 2013 – 1 oktyabr 2016-cı illər dövründə hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçularının siyahısına Prezident Fərmanı ilə 3 dəyişiklik edilib.

- *2 dekabr 2013-cü il tarixli **40** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı*
- *20 noyabr 2015-ci il tarixli **689** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı*
- *24 dekabr 2015-ci il tarixli **715** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Bu dəyişikliklər əsasında Siyahıda həm hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçularının tərkibi dəqiqləşdirilib, həm də onların əhatə dairəsi genişlənib. 2 dekabr 2013-cü il tarixli 40 nömrəli Fərmanla yeni yaradılmış sahə inzibati ərazi dairəsi üzrə nümayəndələri və nümayəndələrinin müavinlərinə Siyahıya əlavə edilib. Əvəzində Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan orqanların rəhbərləri və rəhbər müavinləri Siyahıdan çıxarılıb.

*Dövlət qulluqçularının əlavə təhsilnə sosial təminat verilməsi*

**“Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 11 dekabr 2014-cü il tarixli 387 saylı Fərmanı** dövlət qulluqçularının hazırlanması işinin təkmilləşdirilməsi, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, dövlət idarəçiliyinə dair nəzəri biliklərinin artırılması, habelə bu sahədə vahid kadr siyasətinin həyata keçirilməsi məqsədi ilə verilib.

Fərmana əsasən, dövlət qulluqçuları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında ixtisasartırma və yenidənhazırlanma növləri üzrə əlavə təhsil aldıqda təhsil dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir və təhsil müddətində dövlət qulluqçularının əməkhaqları saxlanılır.

## Korrupsiyaya qarşı mübarizə tədbirlərinin genişləndirilməsi

Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin əsas qanunu - 13 yanvar 2004-cü ildə qəbul edilmiş "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanundur. Bu Qanunla yanaşı 2013-2016-cı illərdə korrupsiyaya qarşı mübarizə sahəsində hökumətin əsas proqram sənədi **Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı** olub. Ölkə Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş sənəd Açıq Hökumət Təşəbbüsləri çərçivəsində qəbul edilib. Azərbaycan 2012-ci ildən Açıq Hökumət Təşəbbüsləri beynəlxalq platformasının üzvüdür və götürdüyü öhdəliklərdən biri də dövlət və bələdiyyə idarəçiliyində korrupsiyanın aradan qaldırılmasıdır. Fəaliyyət Planı ümumilikdə 28 sahəni əhatə edib. Bura korrupsiyaya qarşı mübarizə üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının və Baş Prokurorluq yanında Korrupsiyaya qarşı mübarizə idarələrinin fəaliyyətinin təkmilləşdirilməsi, dövlət və bələdiyyə qulluğunda qanunvericiliyin və institusional mexanizmlərin təkmilləşdirilməsi və s. daxildir.

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın rəsmi məlumatına görə, "Korrupsiyaya qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlər dövlət orqanları tərəfindən 2012-2015-ci illər ərzində 86% icra edilib.[9] "Konstitusiya" Araşdırmalar Fondunun apardığı monitorinqin nəticəsinə görə, Milli Fəaliyyət Planının orta icra göstəricisi 83% təşkil edib[10].

*2013-2016-cı illər ərzində korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirmək məqsədilə institusional potensialın yaxşılaşdırılması çərçivəsində Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin statusu və səlahiyyətləri artırılıb.* Prezidentin 24 iyul 2014-cü il tarixli 234 nömrəli Fərmanı qurumun statusu "İdarə"dən "Baş idarə" səviyyəsinə qaldırılıb. Bundan başqa Baş idarə əgər əvvəllər əsasən korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması üçün təklif və tövsiyələr vermək idisə, 234 nömrəli Fərman əsasında korrupsiya hüquqpozmalarının aradan qaldırılması üçün Baş Prokuror qarşısında məsələ qaldırmaq səlahiyyəti əldə edib. Baş idarənin işçilərinin ümumi sayı 100-dən 140-a qədər artırılıb. Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2014-cü ildə vətəndaşların 9145 müraciətinə (3194 ərizə, 5951 "Qaynar xətt" əlaqə mərkəzinə müraciət), 2015-ci ildə 10654 müraciətinə (3388 ərizə, 7266 "Qaynar xətt" əlaqə mərkəzinə müraciət) baxılıb.[11]

Ancaq digər sahələr yeni yaradılmış institutlar korrupsiyaya qarşı mübarizə tədbirlərinə dolayısı da olsa dəstək verir. Ölkə prezidentinin **3 fevral 2016-cı il tarixli Fərmanı ilə** Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasının yaradılması sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin hüquqlarının qorunması istiqamətində atılan institusional addımdır. Şuranın yaradılması məqsədi sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinə baxılması sahəsində çox pilləliyin təmin edilməsi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən yuxarı orqana şikayətlərin verilməsi mexanizminin təkmilləşdirmək olub. Fərmanın icrası olaraq mərkəzi və yerli icra hakimiyyətləri orqanları yanında Apelyasiya Şuraları yaradılıb. Apelyasiya Şurasının nümunəvi Əsasnaməsində hüquqpozmalar olaraq korrupsiya halları istisna edilir. Daha çox yerli icra hakimiyyəti orqanının sərəncamından, əmrindən, hərəkət və ya hərəkətsizliyindən verilmiş təkrar şikayətlərə baxan orqan kimi təqdim edilir. Müşahidələr göstərir ki, mərkəzi və yerli icra hakimiyyətlərində edilən şikayətlərin bir çoxunun səbəb korrupsiya halları ilə bağlıdır və onların hərəkət və ya

[9] Korrupsiyaya qarşı mübarizə və açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planlarının yerinə yetirilməsi ilə əlaqədar görülən işlər barədə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın Məlumati http://www.antikorrupsiya.gov.az/view.php?lang=az&menu=49

[10] "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın İcrasının yekun monitorinq hesabati, "Konstitusiya" Araşdırmalar Fondu, 2016

[11] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-2015-ci illərdə fəaliyyəti haqqında hesabat

hərəkətsizliyinin kökündə qeyri-rəsmi ödənişlər durur. Bu baxımdan Apelyasiya Şuraları korrupsiyaya qarşı dolayı mübarizənin bir institutu kimi qiymətləndirmək olar.

Korrupsiyaya qarşı mübarizə çərçivəsində qanunvericiliyə edilmiş dəyişiklik əsasən aşağıdakı kimi sistemləşdirmək olar:

*Yerli özünüidarə sistemində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi:*

- **"Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında"** 28 aprel 2015-ci il tarixli, 1278-IVQ saylı Qanun qəbul edilib. Qanunun məqsədlərindən biri də yerli özünüidarə orqanlarının və bələdiyyə qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, korrupsiyanın və bələdiyyə qulluqçularının fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınmasıdır.
- 2015-ci il 13 fevral tarixində "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklərə müvafiq olaraq Nazirlər Kabinetinin 2015-ci il 13 oktyabr tarixli 324 nömrəli qərarı ilə **"Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi" Qaydası** təsdiq edib.

*Sahibkarlığın inkişafına mane olan korrupsiya amillərilə mübarizə:*

- 26 oktyabr 2015-ci il tarixli Fərmanla qəbul edilmiş **"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında"** Azərbaycan Respublikası Qanununa əsasən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılıb.
- Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli **"Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında"** Fərmanına əsasən, lisenziyaların sayı azaldılıb, 22 fəaliyyət növü üzrə lisenziya ləğv edilib, lisenziya verən dövlət orqanlarının sayı 23-dən 4-ə endirilib, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə azaldılıb, lisenziyaların "ASAN xidmət" mərkəzlərində verilməsi təmin edilib.
- Sahibkarların suallarının operativ və keyfiyyətli cavablandırılması, şikayətlərinin, habelə təkliflərinin qəbulu məqsədilə 2015-ci il 4 fevral tarixdən etibarən "Sahibkarlıq fəaliyyəti sahəsində Universal Çağrı Mərkəzi" yaradılıb. Çağrı Mərkəzinə Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Gömrük Komitəsi qoşulub.

*Gömrük sistemində şəffaflıq və hesabatlılığın artırılması*

- Dövlət Gömrük Komitəsi Kollegiyasının 100/001 nömrəli, 30 iyun 2015-ci il tarixli qərarı ilə **"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsi haqqında Əsasnamə"** təsdiq edilib. Baş İdarənin fəaliyyət istiqamətlərinə həmçinin gömrük işi sahəsində elektron xidmətlərin göstərilməsi, gömrük orqanlarının və gömrük əməkdaşlarının fəaliyyətini qiymətləndirmək daxildir.
- **"Gömrük tarifi haqqında"** 13 iyun 2013-cü il tarixli, 687-IVQ saylı Qanun qəbul edilib. Qanun Azərbaycan Respublikasında gömrük tarifinin formalaşdırılması və

tətbiqi, həmçinin gömrük sərhədindən keçirilən mallardan gömrük rüsumlarının tutulması qaydalarını müəyyən edir.

- **“Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında”** 4 mart 2016-cı il tarixli, 1853 saylı Prezident Sərəncamı verilib. Sərəncamın məqsədi gömrük sistemində dövlət sərhədinin buraxılış məntəqələrinin buraxılış qabiliyyətini artırmaq və vətəndaşların rahatlığını təmin etmək üçün malların və nəqliyyat vasitələrinin yoxlanılmasında “bir pəncərə” prinsipinin daha da təkmilləşdirilməsi, ticarət-iqtisadi münasibətlərdə idxal-ixrac əməliyyatlarının rəsmiləşdirilməsinin sadələşdirilməsi, bütün istiqamətlərdə gömrük işinin beynəlxalq standartlara uyğun aparılması, gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsi və s. təmin etməkdir.
- **“Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və digər buraxılış sistemlərindən istifadə QAYDALARI”** 2016-cı il 21 may tarixli, 920 nömrəli Fərmanla təsdiq edilib. Qaydaların məqsədi gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi və məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsi, o cümlədən risk qiymətləndirilməsinin nəticələri əsasında, avtomatlaşdırılmış elektron informasiya sisteminin imkanlarından istifadə etməklə, yarana biləcək təhlükənin səviyyəsinin əvvəlcədən müəyyən edilməsi, gömrük nəzarətinin formalarının idxal-ixrac prosedurları üzrə tətbiqinin daha da optimallaşdırılmasından ibarətdir.

*Dövlət qulluğunda şəffaflığı artırılması:*

- 10 fevral 2014-cü il tarixli 02-Q saylı Qərarı ilə “**Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları”** təsdiq edilib. Bu Qaydalar inzibati vəzifələrin üçüncü – yeddinci təsnifatlarına uyğun olan inzibati vəzifə tutan dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydalarını müəyyən edir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin məqsədi onun təqvim ili ərzində vəzifəsinin öhdəsindən gəlməsini, tutduğu vəzifəyə dair tələbləri yerinə yetirməsini qiymətləndirməkdən və dövlət qulluqçusunun gələcək inkişafını müəyyən etməkdən ibarətdir.

*Tikintiyə icazə, tikintiyə nəzarət və tikintinin istismarına icazə ilə bağlı korrupsiyaya qarşı mübarizə addımları*

2013-2016-cı illərdə tikinti sektorunda tikinti şirkətlərinin və əhalinin öz hüquqlarını müdafiə etməsinə imkan yaradan xeyli sayda normativ hüquqi aktlar qəbul edilib. Bu normativlər korrupsiyaya qarşı mübarizə tədbirləri çərçivəsində dövlət qurumlarının müdaxiləsini məhdudlaşdırmağa, qanunlardakı boşluqlardan sui-istifadəni azaltmağa yönəldilib.

- Nazirlər Kabineti 2015-ci il 12 yanvar tarixli 4 nömrəli Qərarı ilə **“Tikintilərin Dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları”**nı təsdiq etmişdir. Həmin Qaydalar şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin tərkib hissəsi olmaqla, reyestrə daxil edilən məlumatların tərkibini, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması qaydalarını tənzimləyir.
- **“Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi qaydaları”** Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2014-cü il tarixli 375 nömrəli Fərmanı ilə təsdiq

edilib. Yeni Qaydalarda dövlət şəhərsalma nəzarətinin səyyar və kameral qaydada aparılması nəzərdə tutulub.

- **“Texniki nəzarətin həyata keçirilməsinin tələb olunmadığı tikinti obyektlərinin siyahısı”nın təsdiq edilməsi haqqında”** və **“Tikintiyə icazədə nəzərdə tutulan əlavə şərtlərin siyahısı və onların tətbiqi halları”** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 11 sentyabr tarixli 303 nömrəli qərarı Qərarı ilə təsdiq edilib.
- **Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 348 nömrəli Fərmanı ilə təsdiq edilib
- **Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 349 nömrəli Fərmanı ilə təsdiq edilib
- **Tikinti materiallarının və məmulatının standartlara uyğunluğunun yoxlanılması Qaydaları** Azərbaycan Respublikası Prezidentinin 22015-ci il 3 fevral tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilib
- **Tikinti işlərinin dayandırılması Qaydası** Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 533 nömrəli Fərmanı ilə təsdiq edilib
- **Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı hallar** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 iyul tarixli 264 nömrəli qərarı ilə təsdiq edilib

*Dövlət qurumlarında və büdcədən maliyyəşən təşkilatlarda çalışanların maddi rifahının yüksəldilməsi yolu ilə korrupsiyaya qarşı mübarizə addımları*

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 aprel tarixli, 73 nömrəli qərarı ilə **“Polis əməkdaşının maddi və sosial təminatları ilə bağlı qaydaları”**na dəyişiklik edilib. Dəyişikliyə görə, Daxili İşlər Nazirliyinin rəhbərliyinə ixtiyar verilib ki, müəyyən olunmuş müvafiq fondları dairəsində, polis əməkdaşına hər il ən azı bir aylıq vəzifə maaşları həcmində maddi yardım və ən azı bir aylıq vəzifə maaşları həcmində mükafat versin, habelə onlara hər ay əməkdə yüksək nəticələrinə, xüsusi lazımi işlərin vaxtında yerinə yetirilməsinə görə vəzifə maaşlarının 25 faizindən, müxtəlif adda yüksək ixtisaslı proqramçı və elektronçu vəzifələrində çalışan əməkdaşlarına onların iki aylıq vəzifə maaşı məbləğindən müstəntiqlərə, təhqiqatçılara və kriminalistlərə (ekspertlərə) onların bir ay yarımlıq vəzifə maaşı məbləğindən, tərcüməçilərə isə onların aylıq vəzifə maaşı məbləğindən çox olmamaqla əlavələr təyin etsin.
- **“Dövlət qulluqçularının əməkhaqlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 iyul tarixli 2934 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2 dekabr 2013-cü il tarixli 135 saylı Sərəncamı ilə** dövlət orqanlarında (Azərbaycan Respublikasının xaricdə olan diplomatik nümayəndəlikləri, konsulluqları və digər orqanların nümayəndəlikləri istisna olmaqla) qulluq edən dövlət qulluqçularının aylıq vəzifə maaşının minimum məbləği inzibati vəzifələr üçün 175 manatdan 250 manata (artım 43%), yardımçı vəzifələr üçün 120 manatdan 150 manata (artım 25%) qaldırılıb. Bundan başqa Azərbaycan Respublikasında dövlət qulluqçularının aylıq vəzifə maaşları 2 dekabr 2013-cü il tarixli 135 saylı Sərəncam əsasında 2013-cü il dekabr ayının 1-dən etibarən artırılıb.
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 iyun tarixli 225 nömrəli qərarı ilə **“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və**

**həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə Qaydası**”nın və “**Vəzifə (tarif) maaşlarına əlavə verilən işçilərin Siyahısı**” təsdiq edilib. Həmin qərara görə, İnzibati Xətalar Məcəlləsinə əsasən Səhiyyə Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və Nazirliyin xüsusi hesabına köçürülən vəsaitin 25 faizi inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında iştirak edən Səhiyyə Nazirliyin işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq məqsədi ilə istifadə olunur.

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 iyun tarixli 224 nömrəli qərarı ilə “**Əmək qanunvericiliyinin və “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə Qaydası**” təsdiq edilib. Qaydaya görə, İnzibati Xətalar Məcəlləsinə əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən toplanan və Nazirliyin xüsusi xəzinə hesabına köçürülən vəsaitin 25 faizi Nazirliyin işçilərinin sosial müdafiəsinin gücləndirilməsində və maddi-texniki bazasının yaxşılaşdırılmasında istifadə olunur.
- Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin kollegiyasının 10 mart 2016-cı il tarixli 1/1-04 nömrəli qərarı ilə “**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin öz xəzinə hesabına dövlət rüsumlarından daxil olan vəsaitdən istifadə Qaydası**” təsdiq edilib. Bu Qayda Dövlət Agentliyinin öz xəzinə hesabına dövlət rüsumlarından daxil olan vəsaitdən Dövlət Agentliyinin və “ASAN xidmət” mərkəzlərində fəaliyyət göstərən digər dövlət orqanlarının işçilərinin maddi təminatını yaxşılaşdırmaq məqsədi ilə istifadə qaydasını müəyyən edir.

*Digər sahələrdə*

- 1 fevral 2013-cü il tarixdə “**Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında” Konvensiyanın Əlavə Protokoluna qoşulmaq barədə** Azərbaycan Respublikasının 548-IVQ saylı Qanunu qəbul edilib. Bu Qanunla Azərbaycan Respublikası “Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında” Konvensiyanın 2003-cü il mayın 15-də Strasburq şəhərində imzalanmış Əlavə Protokoluna Azərbaycan Respublikasının ona dair bəyanatı ilə qoşulub.
- Səhiyyə Nazirliyi kollegiyasının 18.01.2013-cü il tarixli 3 nömrəli qərarı ilə “**Səhiyyə müəssisələrində həkimlərin müsabiqə yolu ilə mərkəzləşdirilmiş qaydada işə qəbulu Qaydaları**” təsdiq edilib. Bu Qaydalar Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin (bundan sonra - Səhiyyə Nazirliyi) tabeliyində olan səhiyyə müəssisələrində vakant elan edilmiş vəzifələrə həkimlərin mərkəzləşdirilmiş qaydada işə qəbulu qaydalarını müəyyən edir.
- **Müəllimlərin Etik Davranış Qaydaları** Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2014-cü il 6 noyabr tarixli, 1/2 nömrəli Qərarı ilə təsdiq edilib.

Açıq Hökumət Təşəbbüslərinin dəstəklənməsi çərçivəsində 2016-cı ildə qəbul edilən “**Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı**”nda Korrupsiyanın qarşısının alınması sahəsində tədbirlər və qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulur. Bu tədbirlərə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətinin təkmilləşdirilməsi, dövlət qulluqçularının və dövlət orqanlarının digər vəzifəli şəxslərinin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması ilə

bağlı mexanizmlərin işlənməsi və s. daxildir. Hökumət qarşıdakı illərdə hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi qaydaları və korrupsiya cinayətləri ilə əlaqədar ibtidai araşdırma çərçivəsində "istintaq sövdələşməsi" institutunun tətbiqinə dair təkliflərin hazırlanmasını nəzərdə tutur.

Ölkə Prezidentinin 14 oktyabr 2016-cı il tarixdə imzaladığı Qanunla **"Korrupsiyaya qarşı mübarizə haqqında"** Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilib. Bu dəyişikliklə Qanuna korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsini təmin edən maddələr daxil edilib. Digət əlavəyə görə, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat hər bir şəxs tərəfindən yazılı (o cümlədən elektron) və ya şifahi formada verilə bilər.

Korrupsiya ilə bağlı bir sıra qanunvericilik aktları qəbul edilsə də əsas vacib qanunvericilik aktları işləmir. Həmin aktlardan biri də "**Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"dır.** 2005-ci ildə qəbul edilmiş bu Qaydalar maliyyə xarakterli məlumatların təqdim edilmə formasını, maliyyə xarakterli məlumatları təqdim edən vəzifəli şəxsləri, bu məlumatları qəbul edən orqanları və həmin məlumatların yoxlanılması qaydalarını müəyyən edir. Dövlət sektorunda korrupsiyanın qarşısının alınmasını əsas mexanizmlərindən olan gəlirlərin bəyannaməsi mexanizminin işləməməsi korrupsiyaya qarşı mübarizənin səmərəliliyini aşağı salır.

Korrupsiyaya qarşı mübarizə çərçivəsində qanunvericilik aktlarının təkmilləşdirilməsi istiqamətində edilmiş dəyişikliklərə rəğmən Beynəlxalq Şəffaflıq Təşkilatının (Transparency International ) hər il tərtib etdiyi Korrupsiyanı Qavrama İndeksinə görə Azərbaycanın mövqeyində nəzərəçarpmayan yaxşılaşma müşahidə edilib. Ölkəmiz 2012-ci ildə 176 ölkə arasında 139-cu (27 bal), 2013-cü ildə 177 ölkə arasında 127-ci (28 bal), 2014-cü ildə 175 ölkə arasında 126-ci (29 bal), 2015-ci ildə 168 ölkə arasında 119-cu (29 bal) yeri tutub. Azərbaycan 100 mümkün baldan 29 bal yığa bilib[12].

[12] https://www.transparency.org/

## Bələdiyyələrin potensialının gücləndirilməsi, bələdiyyə idarəçiliyi sahəsində ixtisaslaşmış kadrların hazırlanması

Azərbaycanın qoşulduğu Yerli Özünüidarəyə dair Avropa Xartiyasının tələblərinin yerinə yetirilməsi səviyyəsini qiymətləndirmək üçün Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin Monitorinq Qrupu monitorinq apararaq 2012-ci ildəölkəmizlə bağlı 2-ci tövsiyəni - Azərbaycanda yerli və regional demokratiya" adlı 326 saylı Tövsiyə (2012)[13] hazırlayıb.

326 saylı Tövsiyədə göstərilir ki, hal-hazırda bələdiyyələrlə yerli icra hakimiyyətləri arasında səlahiyyətlərin qeyri-bərabər bölünməsi nəticəsində yerli ictimai xidmətlərin əksər hissəsi yerli dövlət icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir və bu şəkildə səlahiyyətlərin bölgüsü səmərəsiz yerli idarəetməyə gətirib çıxarır. Sənəddə tövsiyə edilir ki, bələdiyyələrə səlahiyyətlərinə uyğun dayanıqlı maliyyə resurslarının ayrılması və onların öz resursları üzərində öz səlahiyyətləri çərçivəsində sərbəst sərəncam verə bilməsinin təmin edilməli, gündəlik inzibati işlərinin keyfiyyətini yüksəltmək məqsədilə bələdiyyə kadrlarının qabiliyyətlərinin və hazırlığının artırılması üçün xüsusi təlim proqramları üzrə səmərəli tədbirlər işlənilməlidir.

Tövsiyədən sonra Azərbaycanda bələdiyyə institutunun güclənməsi istiqamətində fundamental dəyişiklik edilməyib. Daha çox texniki xarakterli və şəffaflığa yönəlik addımlar atılıb ki, bunlar da bələdiyyələrin potensialının artmasını şərtləndirməyib.

İnkişaf Konsepsiyasında nəzərdə tutulan bələdiyyələrin potensialının gücləndirilməsi, bələdiyyə idarəçiliyi sahəsində ixtisaslaşmış kadrların hazırlanması istiqamətində bir sıra addımlar atılıb:

*Bələdiyyələrin maliyyə potensialının gücləndirilməsi ilə bağlı addımlar:*

Yerli büdcə daxilolmalarında bələdiyyə mülkiyyətində olan torpaq satışından sonra ikinci ən böyük paya malik olan fiziki şəxslərin əmlak vergisinin vergi bazası təkmilləşdirilməsi, dövlət büdcəsindən maliyyə yardımlarının ayrılması mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində qanunvericilikdə aşağıdakı müsbət dəyişikliklər edilib.

- 20 iyun 2014-cü il tarixində vergi və bələdiyyə qanunvericiliyinə dəyişiklik edilərək yerli büdcələrin əsas gəlir mənbələrindən olan **fiziki şəxslərin əmlak vergisinin vergi bazası təkmilləşdirilib**. Əgər bu vaxta qədər əmlak vergisi "binaların inventarlaşdırılmış dəyərindən" tutulurdusa, 2015-ci ildən başlayaraq binaların sahəsinin hər kvadratmetri əsasında tutulacaq.
- 20 iyun 2014-cü il tarixində "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanuna dəyişiklik edilərək **məqsədsiz maliyyə yardımlarının - dotasiyaların verilməsi meyarları artırılıb.** Bu vaxta qədər dotasiyalar cəmisi 2 meyar əsasında verilirdi. Bundan sonra dotasiyanın həddinin hesablanmasında bələdiyyənin ərazisində yaşayan əhalinin sayı, ölkənin maliyyə ehtiyatlarının formalaşmasında onların xüsusi çəkisi, bələdiyyənin gəlir və xərcləri, bələdiyyəyə daxil olan yaşayış məntəqələrinin cəbhə xəttində, sərhəd zonasında, yüksək dağlıq ərazidə yerləşməsi, yerli əhalinin yaşayış səviyyəsi, nəzərdə tutulan sosial-iqtisadi layihələr nəzərə alınacaqdır.
- 20 iyun 2014-cü il tarixində bələdiyyə qanunvericiliyinə dəyişiklik edilərək **məqsədli maliyyə yardımlarının ayrılması mexanizmlərinin təkmilləşdirilib.** Yerli sosial müdafiə, ekoloji, həmçinin iqtisadi və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi ilə bağlı layihələrin həyata keçirilməsi, həmçinin qanunvericilik və icra hakimiyyəti orqanları tərəfindən bələdiyyələrə həvalə edilən əlavə səlahiyyətlərin maliyyələşdirilməsi məqsədi ilə dövlət büdcəsindən yerli büdcələrə subvensiya ayrılması nəzərdə tutulur.

---

[13] Local and regional democracy in Azerbaijan. Recommendation 326 (2012). Strasbourg, 16-18 October 2012. 23rd SESSION of Congress of Local and Regional Authorities of the Council of Europe

Fiziki şəxslərin əmlak vergisinin vergi bazası təkmilləşdirilməsi gözlənilən effekti verməsə də bu mənbə üzrə daxilolmaların artımını şərtləndirib. 2015-ci ildə ölkə üzrə bələdiyyə büdcəsinə 5,9 milyon manatlıq vergi vəsait daxil olub ki, bu da 2014-cü illə müqayisədə 30% çoxdur. İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin ekspertlərinin hesablamalarına görə, yeni dəyişikik nəticəsində vergi üzrə daxilolmalarının 8-10 dəfə artırılması potensialı mövcuddur. Məqsədli maliyyə yardımlarının ayrılması mexanizmlərinin təkmilləşdirilsə də 2015 və 2016cı illərdə dövlət büdcəsində yerli büdcələrə ancaq məqsədsiz maliyyə yardımı ayrılıb. 2017-ci ildə də belə yardımların ayrılması nəzərdə tutulmuq.

*Bələdiyyələrin maliyyə potensialının məhdudlaşdırılması ilə bağlı addımlar:*

Vergi qanunvericiliyinə edilmiş dəyişikliklər həmçinin yerli özünüidarə qurumlarının maliyyə imkanlarını məhdudlaşdırmağa yönəlib. Ancaq bu addımların nəticəsində bələdiyyə qurumlarına kompensasiya ödənilməyib. Halbuki "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Qanunun 6-cı maddəsinə əsasən, icra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcələrin gəlirlərinin azalması və ya xərclərinin artması baş verdikdə uyğun azalma və ya artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunmalıdır.

Bələdiyyələrin maliyyə potensialının məhdudlaşdıran addımlar aşağıdakılardır:

- Prezidentin 6 may 2016-cı il tarixdə imzaladığı 227-VQD saylı Qanunla **Vergi Məcəlləsinə** bir sıra dəyişiklik edilib. Bu dəyişiklik Azərbaycanda yerli özünüidarə qurumlarının zəif maliyyə potensialını bir qədər də məhdudlaşdırmağa imkan yaradır. Məcəlləyə edilmiş dəyişiklik nəticəsində 2017-ci il yanvarın 1-dən etibarən Məcəllənin 206.1-1-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisinin dərəcəsi torpaq sahəsinin hər 100 kvadratmetrinə görə 1 manat müəyyən edilir. Bu vəsait dövlət büdcəsinə köçürüləcək. Halbuki bu vaxta qədər fiziki şəxslərdən tutulan torpaq vergisi istisnasız olaraq yerli büdcələrə, yəni bələdiyyələrin büdcələrinə ödənilirdi. Dövlət büdcəsinə isə ancaq hüquqi şəxslərin torpaq vergisi ödənilib.

  206.1-1-ci maddəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının verdiyi arayışa əsasən, təyinatı üzrə istifadə edilən və ya irriqasiya, meliorasiya və digər aqrotexniki səbəblərdən təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları üzrə torpaq vergisinin dərəcəsi 1 şərti bal üçün 0,06 manat saxlanılıb. Təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadə edilməsi mümkün olmayan kənd təsərrüfatı torpaqları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən qayda və meyarlar əsasında müəyyən edilir.

- Vergi Məcəlləsinə **19 yanvar 2016-cı il tarixdə 107-VQD saylı Qanun**la edilmiş dəyişikliyə əsasən, investisiya təşviqi sənədini almış hüquqi şəxs və fərdi sahibkar həmin sənədi aldığı tarixdən mülkiyyətində və ya istifadəsində olan müvafiq torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddır. Analoji güzəşt sənaye və texnoloji parkların rezidenti olan fiziki şəxslərə də şamil edilir.

*Bələdiyyələrin kadr potensialının gücləndirilməsi ilə bağlı addımlar:*

Kadr potensialının artırılması istiqamətində əsas diqqət dövlət qulluğuna qəbul zamanı rəqabətin formalaşdırılması və bələdiyyə qulluqçularının etik davranışına dair prinsiplərin müəyyənləşdirilməsinə yönəldilib:

- **"Bələdiyyə qulluğu haqqında" Qanuna** 13 fevral 2015-ci il tarixdə edilmiş 1196-IVQD saylı dəyişikliyə əsasən bələdiyyə qulluğuna qəbul mexanizmi dəyişdirilərək müsabiqə əsasında qəbul mexanizmi qəbul edilib. Son dəyişikliyə qədər bələdiyyə sədrini bələdiyyə

qulluğuna birbaşa işçi götürmək səlahiyyəti var idi. Yeni dəyişikliyə əsasən, müsabiqə komissiyası müsabiqə əsasında vətəndaşları işə götürəcək.

- 28 aprel 2015-ci il tarixdə **“Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında”** Azərbaycan Respublikasının 1278-IVQ saylı Qanunu imzalanıb. Qanun bələdiyyə qulluqçuları üçün etik davranış qaydalarını və prinsiplərini, habelə həmin qayda və prinsiplərə əməl olunması ilə bağlı hüquqi mexanizmləri müəyyən edir və bələdiyyə qulluqçusu statusu olan bütün şəxslərə şamil edilir. Qanunun məqsədi yerli özünüidarə orqanlarının və bələdiyyə qulluğunun nüfuzunun artırılması, bələdiyyə qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, korrupsiyanın və maraqlar toqquşmasının qarşısının alınması, bələdiyyə qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin etməkdir. Qanunun icrası məqsədilə Nazirlər Kabinetinin 2015-ci il 13 oktyabr tarixli 324 nömrəli qərarı ilə “**Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi” Qaydası**nı qəbul edib.

*Şəffaflıq və hesabatlılığın artırılması ilə bağlı addımlar:*

Yerli vergi və rüsumların ödənişində nağdız qaydaya keçid, qəbul edilən qərarların dərci və ictimaiyyətə açıqlanması şəffaflığın artırılması məqsədi daşıyıb.

- Şəffaflığın artırılması məqsədilə **“Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında”** Qanuna edilmiş dəyişiklik edilmiş və 2015-ci il yanvarın 1-dən etibarən bələdiyyələr tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbul olunması qadağan edilib.
- Nazirlər Kabinetinin 20 iyun 2013-cü il tarixli **148** nömrəli Qərarı ilə **„Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların maliyyə və təsərrüfat fəaliyyəti göstəricilərinin qeydiyyata alınması Qaydaları“**na dəyişiklik edilərək bələdiyyələrin üzərinə onların tabeliyində olan müəssisə və təşkilatların rüblük və illik maliyyə hesabatlarını dərc edilməsi öhdəliyi qoyulub.
- Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 172 nömrəli qərarı ilə **“Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi”** Qaydası təsdiq edilib. Bu Qayda “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə əsasən hazırlanıb və mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi qaydasını müəyyən edir.
- **“Bələdiyyələrin statusu haqqında”** Azərbaycan Respublikasının Qanuna 28 oktyabr 2014-cü il tarixdə edilmiş 1103-IVQD saylı dəyişiklik bələdiyyənin görülmüş işlər haqqında, o cümlədən maliyyə vəsaitlərinin və bələdiyyə mülkiyyətinin istifadəsi haqqında seçicilərinə hesabat verməsi, bələdiyyə hesabatlarının bələdiyyə binasının qarşısında xüsusi lövhələrdə yerləşdirilməsini, habelə elan, bülleten, vərəqə, yerli mətbuat, internet saytı və digər vasitələrlə əhaliyə çatdırılmasını nəzərdə tutur.

Yerli vergi və rüsumların ödənişində nağdız qaydaya keçid şəffaflığın artırılması baxımından düzgün qərar olsa da naqd ödənişin qadağan edilməsi rayon mərkəzlərində və poçt idarələrindən uzaqda olan yaşayış məntəqələrində vergi yığımına problemlər yaradıb ki, bunun da əsas çətinliyi kənd bələdiyyələrinin üzərinə düşüb.

*Bələdiyyələr üzərində nəzarətin gücləndirilməsi ilə bağlı addımlar:*

- **“Bələdiyyələrin statusu haqqında”** Azərbaycan Respublikasının Qanuna 28 oktyabr 2014-cü il tarixdə edilmiş 1103-IVQD saylı dəyişiklik bələdiyyə hesabatının seçicilərə verdiyi hesabatın, təsdiq etdikdən sonra 10 gün müddətində bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana göndərməlidir. Bundan başqa müvafiq icra hakimiyyəti orqanı hesabat dövründə bələdiyyənin fəaliyyətini qeyri-qənaətbəxş hesab etdikdə bələdiyyənin vaxtından əvvəl buraxılması ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisinə müraciət etmək hüququ qazanıb.

*Bələdiyyələrin böyüdülməsi ilə bağlı addımlar:*

- 30 may 2014-cü il tarixli **“Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” Qanunla** ölkədə bələdiyyələrin sayı 1607-yə qədər azaldılıb[14]. Bu, ikinci birləşmə addımıdır. İlk birləşmə 2009-cu ildə keçirilmişdi və bələdiyyələrin sayı 2757-dən 1718-ə qədər azaldılmışdı. Hazırda 73 şəhər, 147 qəsəbə, 1387 kənd bələdiyyəsi fəaliyyət göstərir. 2006-cı ildə 3 milli Assosiasiya yaradılıb: şəhər, qəsəbə və kənd milli assosiasiyaları.

*Bələdiyyələrin bəzi sahələrdə hüquqlarının artırılması ilə bağlı addımlar:*

Ölkə iqtisadiyyatının müxtəlif sahələri üzrə bələdiyyələrə əlavə hüquqlar verilib. Ancaq maliyyə imkanlarının məhdudluğu bu hüquqlardan istifadəni mümkünsüz edir. Yerli özünüidarə qurumlarının səlahiyyətləri və ona uyğun maliyyə imkanları olmadıqca ona verilən hüquqlar formal xarakter daşıyacaq. Hesabat dövründə bələdiyyələrə aşağıdakı hüquqlar verilib:

- **“Yaşıllıqların mühafizəsi haqqında”** Azərbaycan Respublikasının 02 may 2014-cü il tarixli 957-IVQ saylı Qanunu əsasında yerli özünüidarə qurumlarına öz mülkiyyətlərində olan yaşıllıqlaı mühafisə etmək səlahiyyəti verilib.
- Prezidentinin 29 dekabr 2015-ci il tarixli Fərmanı ilə qəbul edilmiş **“Publik hüquqi şəxslər haqqında”** Qanun bələdiyyə qurumlarına publik hüquqi şəxslər yaratmaq hüququ verilib. Qanuna görə, publik hüquqi şəxslər ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır. Dövlət qurumlarından fərqli olaraq publik hüquqi şəxslərə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ verilib. Publik hüquqi şəxslərin maliyyə təminatı dövlət büdcəsi hesabına aparılmayacaq, özünümaliyyə prinsipi ilə işləyəcək.
- **Torpaq Məcəlləsi**ndə 18 dekabr 2015-ci il tarixdə 60-VQD saylı Qanunla edilmiş dəyişiklik əsasında bələdiyyə mülkiyyətində olan uzunmüddətli müvəqqəti istifadə hüququ 99 ildən 49 illədək endirilib.
- **“Kənd təsərrüfatı kooperasiyası haqqında”** Azərbaycan Respublikasının 14 iyun 2016-cı il tarixli 270-VQ saylı Qanunu əsasında yerli özünüidarə qurumlarına kənd təsərrüfatı kooperasiyaları ilə əməkdaşlıq etmək imkanları verilib. Qanuna görə, kənd təsərrüfatı kooperasiyası sahəsində bələdiyyələr üzərinə kənd təsərrüfatı kooperasiyasının yerli inkişaf proqramlarını qəbul etmək və regional proqramların hazırlanmasında iştirak etmək, kooperativlərin yaradılmasını dəstəkləmək, onların təşkilinə köməklik göstərmək, kooperativ bazarların tikintisi üçün torpaq ayırmaq, kənd təsərrüfatı məhsulları satış-yarmarkalarının təşkili üçün müvafiq yer vermək və s. kimi vəzifələr qoyulub

[14] Azərbaycanda yerli özünüidarənin mövcud vəziyyəti ilə bağli rəy. BİNA, Bakı, 2011

## Qeyri-hökumət təşkilatlarının, xüsusən bölgələrdə fəaliyyətinin dəstəklənməsi

2013-cü ildən başlayaraq Azərbaycanda qeyri-hökumət təşkilatlarının həm birbaşa fəaliyyətini tənzimləyən, həm də onların fəaliyyətinin asılı olduğu digər qanunvericilik aktlarına xeyli dəyişikliklər edilib. Təəssüf ki, bu dəyişikliklər QHT-lərin, o cümlədən beynəlxalq təşkilatların fəaliyyətini məhdudlaşdırmaq istiqamətində olub.

Qeyri-hökumət təşkilatlarının fəaliyyətini tənzimləyən əsas Qanuna - "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanuna bir sıra dəyişikliklər edilib. 15 fevral 2013-cü il (561-IVQD), 17 dekabr 2013-cü il (849-IVQD) və 17 oktyabr 2014-cü il (1082-IVQD) tarixlərdə edilmiş dəyişikliklər əsasən aşağıdakılardan ibarətdir:

- Qeyri-hökumət təşkilatlarının icra orqanları tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulduğu halda məhkəmə qərarı ilə QHT-nin fəaliyyəti bir ilədək dayandırıla bilər.
- Xarici dövlətlərin qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycan Respublikasının ərazisində bir nümayəndəlik və ya filial yaradıla bilər.
- Qeyri-hökumət təşkilatının filialı və nümayəndəliyi Əsasnamədə müəyyən edilmiş fəaliyyət predmetinə və vəzifələrinə uyğun fəaliyyət göstərməlidir.
- Xarici dövlətin qeyri-hökumət təşkilatının filialının və nümayəndəliyinin rəhbərinin təyin edilməsi barədə sənəddə onun səlahiyyət müddəti göstərilməlidir.
- Azərbaycan Respublikasında xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin dövlət qeydiyyatı həmin təşkilatlarla bağlanmış saziş əsasında həyata keçirilir. Sazişdə onun qüvvədə olma müddəti göstərilməlidir.
- Qeyri-hökumət təşkilatı peşəkar dini fəaliyyətlə məşğul ola bilməz.
- Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatları müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Əks halda belə ianələr üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz.
- Qeyri-hökumət təşkilatı tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə qeydə alınması üçün qeyri-hökumət təşkilatı tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur. Müqavilə olmadan və ya qeydiyyata alınmamış müqavilə üzrə xidmətlər göstərən və ya işlər görən qeyri-hökumət təşkilatı İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyır.
- İctimai birliyin səlahiyyət müddəti bitmiş icra orqanları tərəfindən təşkilatın fəaliyyəti ilə əlaqədar hər hansı qərarların qəbul edilməsinə və ya sənədlərin imzalanmasına yol verilmir.
- Xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri korrupsiya hüquqpozmalarının, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onun üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidirlər.
- Qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanına yoxlama aparmaq səlahiyyətinin verilməsi.

17 dekabr 2013-cü il tarixli 849-IVQD saylı Azərbaycan Respublikasının Qanunu ilə Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının qanununa 22, 17 oktyabr 2014-cü il tarixli, № 1082-IVQD saylı Qanunla 4 məhdudlaşdırıcı norma əlavə edilib.

Qeyri-hökumət təşkilatlarının fəaliyyətini tənzimləyən qanunvericilik aktının biri də 17 aprel 1998-ci il yarixdə qəbul edilmiş **"Qrant haqqında"** 483-IQ saylı Qanundur. Bu Qanuna 2013-2014-cü illərdə 4 dəfə (15 fevral 2013-cü il, 17 dekabr 2013-cü il, 17 oktyabr 2014-cü il, 28 oktyabr 2014-cü il tarixli) dəyişiklik edilib.

Qanuna aşağıdakı dəyişikliklər edilib:

- Qrant müqaviləsi olmadan Azərbaycan Respublikasında fəaliyyət göstərən dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada yardım qəbul edə bilməz.
- Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən qurumlar fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilərlər.
- Beynəlxalq donor təşkilatları (qanunvericilikdə nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndələkləri) Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnu əldə etdikdən sonra donor qismində çıxış edə bilərlər. Qrant vermək hüququnun əldə edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyi tələb olunur.
- Qeydə alınmayan qrant verilməsi və ya alınması haqqında müqavilələr (qərarlar) üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz.

Qanunvericiliyə edilmiş bu və digər dəyişikliklər 2013-cü ildən başlayaraq qeyri-hökumət təşkilatlarının fəaliyyətini çətinləşdirdi. Qanunvericiliyə edilmiş dəyişikliklər QHT-lərin fəaliyyətində şəffaflığın artırılması ilə əlaqələndirilsə də əslində QHT sektorunda bu məsələ çox da aktual olmayıb. Çünki, bu qurumlar digər kommersiya hüquqi şəxslərindən daha çox hesabatlıdırlar. Mövcud qanunvericiliyin tələbinə əsasən bu qurumlar hər rübdə bir dəfə və ildə bir dəfə olmaqla 5 dəfə Vergilə, 5 dəfə DSMF-yə, 1 dəfə Maliyyə, hər ünvan dəyişikliyi, toplantı keçirmə, qrant alma, qrantda müddət dəyişməsi, məqsəd dəyişməsi, qrant üzrə xidmət göstərilməsi durumlarında isə Ədliyyə Nazirliyinə hesabatlar, sənədlər təqdim edir. QHT-lərin bank hesabına gələn vəsait isə Mərkəzi Bankın Maliyyə Monitorinq Mərkəzi (indi Maliyyə Bazarlarına Nəzarət Palatasının nəzdindədir) tərəfindən nəzarət edilir.

İnzibati Xətalar Məcəlləsinin 223-1-ci maddəsində Qrant verən Azərbaycan Respublikasının hüquqi və ya fiziki şəxsi, yaxud Azərbaycan Respublikasının hüquqi şəxsinin filial və ya nümayəndəliyi olan donorlar və ya qrant alan Azərbaycan Respublikasının resipiyentləritərəfindən qrant alınması (verilməsi) haqqında müqavilələrin və qərarların surətlərinin qeydiyyat üçün qanunvericiliklə müəyyən edilmiş müddətlərdə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim edilməməsinə görə fiziki şəxslər 1000 manatdan 2000 min manatadək miqdarda, vəzifəli şəxslər 1500 manatdan 2500 manatadək miqdarda, hüquqi şəxslər 5000 manatdan 7000 manatadək miqdarda cərimə ilə cəzalandırılır. Bu norma 2008-ci ilin 12 dekabr tarixinədək 20 manatdan 50 manatadək nəzərdə tutulmuşdu.

## Demokratik və şəffaf idarəetmənin mühüm tərkib hissəsi kimi bərabərlik, tərəfsizlik və açıqlıq prinsiplərinə uyğun olaraq, vətəndaşların dövlət tərəfindən yayımlanan məlumatlara çıxış imkanlarının artırılması, dövlət sektorunda bir sıra xidmətlərin müvafiq sahə üzrə ixtisaslaşmış özəl müəssisələrə ötürülməsi

### *Vətəndaşların dövlət tərəfindən yayımlanan məlumatlara çıxış imkanlarının artırılması*

Dövlət tərəfindən yayımlanan məlumatlara vətəndaşların çıxış imkanlarının artırılmasını qiymətləndirmək üçün bir sıra vacib qanunvericilik aktları, o cümlədən "İnformasiya əldə etmək haqqında", "Vətəndaşların müraciətləri haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Dövlət sirri haqqında" Azərbaycan Respublikası qanunları, ölkə prezidentinin müvafiq Fərmanları, "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və digər normativ aktlar analiz edilib.

Dövlət tərəfindən yayımlanan məlumatlara vətəndaşların çıxış imkanlarının və əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması üçün Prezidentin 5 fevral 2013-cü il tarixli Fərmanı ilə **"Elektron hökumət" portalı haqqında Əsasnamə"** təsdiq edilib. Əsasnamə dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadəni təmin edən "Elektron hökumət" portalının fəaliyyətinin təşkilinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir. "Elektron hökumət" portalı dövlət orqanlarının elektron xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim olunmasına, istifadəçilərin onlardan istifadəsinə, dövlət orqanlarının portala qoşulmuş informasiya sistemlər və ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) müvafiq sənədlər barədə qanunla müəyyən edilmiş qaydada informasiya əldə edilməsinə xidmət edir. Portalın istifadəçiləri - fiziki və hüquqi şəxslər, dövlət qurumları ola bilər.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş **"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"**nda hökumətin götürdüyü öhdəliklərdən biri də informasiya əldə edilməsinin asanlaşdırılması, dövlət orqanlarının öz fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumat verməsi nəzərdə tutulub.

Fəaliyyət Planının icrası çərçivəsində 2013-2015-ci illərdə aşağıdakı dövlət qurumları müvafiq qanunvericilik aktı qəbul ediblər.

1) Dövlət Gömrük Komitəsinin 17 oktyabr 2013-cü il tarixli 100/02/001 saylı Kollegiya Qərarı ilə **"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində İnformasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları" təsdiq edilib.** Bu Qaydalar Dövlət Gömrük Komitəsinin aparatında, strukturuna daxil olan gömrük orqanlarında və tabeliyində olan digər qurumlarında, habelə onlara məxsus elektron informasiya ehtiyatlarında mövcud olan informasiyalardan hamı tərəfindən sərbəst və maneəsiz şəkildə, bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında əldə edə bilməsinin təmin edilməsi üçün Dövlət Gömrük Komitəsinin daxili icraat qaydalarını tənzimləyir.

2) Əmlak Məsələləri Dövlət Komitəsi Kollegiyasının 2014-cü il 13 yanvar tarixli 02 nömrəli Qərarı ilə təsdiq edilmiş **"Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində informasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları"** Əmlak Məsələləri Dövlət Komitəsinin aparatında, strukturuna daxil olan və tabeliyində olan qurumlarında, habelə onlara məxsus elektron informasiya ehtiyatlarında mövcud olan informasiyalardan hamı tərəfindən sərbəst və maneəsiz şəkildə, bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında əldə edilə bilməsinin təmin olunması üçün Əmlak Məsələləri Dövlət Komitəsinin daxili icraat qaydalarını tənzimləyir.

3) Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın 18 sentyabr 2014-cü il tarixli 104-Q nömrəli Qərarı ilə **İnformasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları** təsdiq edilib. Bu Qaydalar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada, habelə ona məxsus elektron informasiya ehtiyatlarında mövcud olan informasiyaların hamı tərəfindən sərbəst və maneəsiz şəkildə, bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında əldə edilməsinin təmin olunması üçün Komissiyanın daxili icraat qaydalarını tənzimləyir. İnformasiyanın əldə edilməsinə o şərtlə icazə verilir ki, bu, Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi, maliyyə-kredit və valyuta siyasəti sahələrində maraqlarının qorunması, ictimai qaydanın, sağlamlığın və mənəviyyatın mühafizəsi, digər şəxslərin hüquq və azadlıqlarının, kommersiya və digər iqtisadi maraqlarının qorunması, məhkəmənin nüfuzunun və qərəzsizliyinin*, cinayət işləri üzrə ibtidai araşdırmanın normal gedişinin* təmin edilməsi məqsədlərinə zidd olmasın.

4) Dövlət Miqrasiya Xidməti Kollegiyasının 4 noyabr 2014-cü il tarixli, 10 saylı Qərarı ilə təsdiq edilmiş **"Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində informasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları"** Dövlət Miqrasiya Xidmətində, habelə ona məxsus elektron informasiya ehtiyatlarında mövcud olan informasiyaların hamı tərəfindən sərbəst və maneəsiz şəkildə, bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında əldə edilməsinin təmin olunması üçün Xidmətin daxili icraat qaydalarını tənzimləyir.

5) Ədliyyə Nazirliyinin 30 mart 2015-ci il tarixli 1-N saylı Kollegiya Qərarı ilə **"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində informasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları"** təsdiq edilib. Qaydalar ədliyyə orqanlarında, habelə Ədliyyə Nazirliyi tərəfindən aparılan elektron informasiya ehtiyatlarında mövcud olan informasiyalardan hamı tərəfindən sərbəst və maneəsiz şəkildə, bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında əldə olunmasının təmin edilməsi üçün Ədliyyə Nazirliyinin daxili icraat qaydalarını tənzimləyir. Bu Qaydalar dövlət sirri təşkil edən məlumatlara, "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təklif, ərizə və şikayətlərə və Nazirliyin Çağrı Mərkəzinə daxil olan müraciətlərə, "Milli arxiv fondu haqqında" Qanuna uyğun olaraq arxiv sənədləri ilə işləməyə buraxılmanın təmin edilməsinə, beynəlxalq müqavilələrlə müəyyən edilmiş məhdudiyyətlərə şamil edilmir.

Nazirlər Kabinetinin 2014-cü il 30 dekabr tarixli 408 nömrəli qərarı ilə **"Elektron kənd təsərrüfatı" informasiya sistemindən istifadə Qaydaları** qəbul edilib. "Elektron kənd təsərrüfatı" informasiya sistemi Kənd Təsərrüfatı Nazirliyi tərəfindən yaradılıb. İnformasiya sistemi Azərbaycan Respublikasının kənd təsərrüfatı təyinatlı torpaq sahələri, fermer təsərrüfatları, kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən dövlət dəstəyi ilə bağlı tədbirləri, operatorun müvafiq sahədə vəzifə və funksiyalarının icra prosedurları barədə məlumatları əks etdirən dövlət informasiya ehtiyatlarının və təşkilati texniki elementlərin vahid kompleksidir. Kənd təsərrüfatı məhsulları istehsalçısı, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən fiziki və ya hüquqi şəxslər bu məlumatlardan istifadə edə bilərlər. "Elektron kənd təsərrüfatı" informasiya sistemi ilə digər dövlət informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsinin aparılması "Elektron hökumət" portalı vasitəsilə həyata keçirilir.

Kütləvi informasiya vasitələrində yayılan məlumatlar bir qədər məhdudlaşdırılıb və bununla bağlı **"Kütləvi informasiya vasitələri haqqında"** Qanuna bəzi dəyişikliklər edilib. Qanuna edilmiş 29 aprel 2016-cı il tarixli 213-VQD nömrəli dəyişikliklə informasiyanın yayılmasına, informasiya mənbəyinin açıqlanmasına yol verilməyən xüsusi halların siyahısı genişləndirilib. Dəyişikliyə görə,

- *Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada tərtib edilən və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sənədləşdirilmiş informasiya hesab edilən cinayət təqibi üzrə icraat materiallarının surətlərini olduğu kimi yaymasına,*

- *yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə hər hansı məlumatların həmin şəxslərin və onların qanuni nümayəndələrinin razılığı olmadan yaymasına yol verilmir.*

Ədliyyə Nazirliyi Kollegiyasının 2013-cü il 22 aprel tarixli 3-N nömrəli Qərarı ilə **Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məlumatın verilməsi üzrə inzibati reqlament** təsdiq edilib. Bu reqlament vətəndaşa borclu olduğu halda onun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə dövlət qurumunun qərarının elektron qaydada ödənişsiz məlumatın əldə edilməsinə xidmət edir. Elektron xidmətdən fiziki və hüquqi şəxslər yararlana bilərlər. Elektron xidmətin yerinə yetirilməsinə nəzarəti Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İcra baş idarəsi həyata keçirir.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı ilə təsdiq edilmiş **Dövlət sirrinə aid edilən məlumatların Siyahısı**nda dəyişiklik edilib. Prezidentin 3 may 2013-cü il tarixli 873 nömrəli Fərmanı ilə "neft, neftlə həll olunmuş qaz" barədə məlumatlar "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"ndan çıxarılıb.

### *Dövlət sektorunda bir sıra xidmətlərin müvafiq sahə üzrə ixtisaslaşmış özəl müəssisələrə ötürülməsi*

Monitorinq dövrünü əhatə edən 2013-2016-cı illərdə dövlət xidmətlərinin hansısa hissəsinin özəl müəssisələrə ötürülməsi halları baş verməyib. Həyata keçirilən siyasət dövlət xidmətlərinin ancaq dövlət qurumları tərəfindən icra edilməsinə yönəldilib. Ötən onillikdə dövlət xidmətlərin göstərilməsində özəl sektorun rolunun artırılması istiqamətində bir sıra addımlar atılıb. 2006-cı ildə Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər) qəbul edilib. Proqramın məqsədi valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların ailə mühitində sağlam inkişafı və cəmiyyətə inteqrasiyası üçün dövlət təlim-tərbiyə müəssisələrindən ailələrə verilməsi və alternativ qayğının təşkili mexanizmlərinin yaradılması və tətbiqini təmin etməkdir. Bundan başqa 30 dekabr 2011-ci il tarixli **"Sosial xidmət haqqında"** Qanunda sosial xidmətin bir hissəsinin özəl sektorun üzərinə qoyulması üçün hüquqi əsas yarandı. Qanunla **sosial xidmət göstərən subyektlər cərgəsinə dövlətlə yanaşı** hüquqi və fiziki şəxslər (sosial xidmət müəssisəsi, sosial işçi, sosial xidmətçi) də daxil edildi. Ancaq proses bununla yekunlaşdı və özəl sektor dövlətdən xidmət əldə edə bilmədi. Həm Dövlət proqramı, həm də Qanunun icrası prosesində daha çox dövlət mülkiyyətində olan müəssisələrin gücləndirilməsi həyata keçirildi. Məsələn, Nazirlər Kabineti Dövlət Proqramından irəli gələrək 2015-ci il 22 may tarixli 194 nömrəli qərarı ilə **Uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi** təsdiq edilib. Nümunəvi Nizamnaməyə əsasən, bu müəssisələr icra hakimiyyəti orqanlarının tabeliyində yaradılır.

Özəl sektorun iştirakına imkan yaradan yeganə addım Nazirlər Kabineti "Sosial xidmət haqqında" Qanuna əsaslanaraq 2013-cü il 31 yanvar tarixli 17 nömrəli qərarı ilə təsdiq edilmiş **"Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası**nın qəbulu olub. Bu Qaydalara əsasən, sosial xidmət göstərilməsi üçün ailənin yetkinlik yaşına çatmış üzvlərindən biri və ya şəxsin (ailənin) maraqları çərçivəsində şəxsin valideynləri, digər qanuni nümayəndəsi (qəyyumu, himayəçisi), bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə həmin şəxsin razılığı ilə digər şəxslər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin şəhər, rayon əhalisinin sosial müdafiəsi mərkəzlərinə müraciət etməklə sosial xidmət göstərə bilərlər.

2000-ci illərində dövlət idarəçiliyində başlamış əksmərkəzləşmə meylləri sonradan mərkəzləşmə meyilləri ilə əvəz olunub. Ötən onilliyin əvvəli bəzi xidmətlər bələdiyyə qurumlarına və özəl sektora verilsə də sonradan dövlət qurumları tərəfindən geri alınmağa başladı.

Neft gəlirlərinin azalması fonunda dövlət büdcəsinin xərclərinin azalması büdcə yükünün azaldılması (fiskal konsolidasiya) siyasətini labüd edir. Dövlət büdcəsindən hər il müxtəlif istiqamətlərdə o cümlədən, kommunal sektora və mənzil təsərrüfatına böyük həcmdə vəsait ayrılır. Bu vəsaitlərin səmərəli istifadə suallar doğrur. Ölkə iqtisadiyyatının mövcud vəziyyəti dövlət qurumlarının funksiyalarının bəzilərinin özəl sektora ötürülməsini tələb edir.

## Dövlət orqanlarında idarəçilik metod və mexanizmlərinin təkmilləşdirilməsi, vətəndaş və təşkilatların xidmətlərdən sadə, asan və sərbəst istifadəsi üzrə kompleks tədbirlərin davam etdirilməsi, elektron kanallar vasitəsilə ictimaiyyətə təqdim edilən dövlət xidmətlərinin sayının artırılması

2012-ci ildən başlayaraq dövlət orqanları vasitəsilə vətəndaşlara və təşkilatlara göstərilən elektron xidmətlərin sayı və keyfiyyətində əhəmiyyətli artımlar müşahidə edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 oktyabr 2012-ci il tarixli 235 nömrəli Qərarı ilə **"Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"** və dövlət orqanları tərəfindən göstərilən "**Elektron xidmət növlərinin Siyahısı"** təsdiq edilib. Qərara görə, elektron xidmətlər reyestrinin operatoru funksiyalarını Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi həyata keçirir.

Qaydalara əsasən, mərkəzi icra hakimiyyəti orqanları konkret sahələr üzrə elektron xidmətləri inzibati reqlamentə uyğun həyata keçirməlidir. Ümumilikdə 37 dövlət qurumu tərəfindən elektron qaydada 454 xidmət göstərilir.

**"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında"** Azərbaycan Respublikası Prezidentinin Fərmanına edilmiş dəyişikliklər əsasında əhalinin ASAN xidmətləri vasitəsilə aşağıdakı dövlət xidmətlərinə çıxış imkanlarını yaxşılaşdırılıb:

- yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışın verilməsi *(31 avqust 2015-ci il tarixli 588 nömrəli Fərman)*
- mənzillər üzərində mülkiyyət hüquqlarının ilkin və təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi *(11 fevral 2014-cü il tarixli 110 nömrəli Fərman).* Bundan əvvəl ASAN xidməti ancaq mənzillər üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışları verirdi.
- daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi *(18 mart 2013-cü il tarixli 852 nömrəli Fərman);*
- fərdi yaşayış evləri üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi (*11 fevral 2014-cü il tarixli_**110**_nömrəli Fərman*);
- əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazələrin, habelə haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmələri üçün iş icazələrinin verilməsi *(18 mart 2013-cü il tarixli_**852**_nömrəli Fərman)*
- şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı sorğuların qəbulu və cavablandırılması *(31 avqust 2015-ci il tarixli_**588**_nömrəli_ Fərman)*
- yaşayış yeri üzrə qeydiyyata alındığı və ya qeydiyyatdan çıxarıldığı hallarda çağırışçıların və hərbi vəzifəli vətəndaşların hərbi qeydiyyata alınması və hərbi qeydiyyatdan çıxarılması *(11 fevral 2014-cü il tarixli_**110**_nömrəli Fərman)*
- xaricdə istifadə üçün nəzərdə tutulan sənədlərə dair Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən apostil verilməsi üçün sənədlərin qəbulu *(11 fevral 2014-cü il tarixli_**110**_nömrəli Fərman)*

- taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılıq (lisenziya) verilməsi, taksi minik avtomobilləri ilə sərnişin daşınmasını həyata keçirən sadələşdirilmiş vergi ödəyicilərinə məxsus nəqliyyat vasitəsinə "Fərqlənmə nişanı"nın verilməsi *(31 avqust 2015-ci il tarixli_**588**_nömrəli_ Fərman)*
- sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) xüsusi razılıq (lisenziya) verilməsi *(19 oktyabr 2015-ci il tarixli_**650**_nömrəli Fərman)*

Bundan başqa ASAN xidməti mərkəzləri olmayan ərazilərdə yaşayan əhalinin dövlət xidmətlərinə əlçatanlığının artırılması üçün Dövlət Agentliyinin vəzifələrinə 11 fevral 2014-cü il tarixli 110 nömrəli Fərmanla mərkəzlərdə göstərilən xidmətlərin *səyyar formada göstərilməsinin təşkili qaydalarını müəyyən etmək və* səyyar formada təşkilini həyata keçirmək, *səyyar xidmətdən daxil olan vəsaitin işçilərin sosial müdafiəsinin gücləndirilməsinə və maddi təminatının yaxşılaşdırılmasına yönəldilən hissəsini müəyyən etmək* daxil edilib.

31 avqust 2015-ci il tarixli 588 nömrəli_Fərmanla "ASAN xidmət" mərkəzlərinə xüsusi notariusların fəaliyyətinin təşkili ilə bağlı müqavilələr bağlamaq və xüsusi notariuslar tərəfindən tutulan haqların Dövlət Agentliyinin xüsusi hesabına köçürülən hissəsini müəyyən etmək vəzifəsi də tapşırılıb.

Prezidentin 18 mart 2013-cü il tarixli 852 nömrəli Fərmanı ilə "ASAN xidmət" mərkəzlərində aşağıdakı funksional yardımçı xidmətlər həyata keçirmək hüququ verilib.

- bank xidmətləri:
- cari bank hesablarının açılması;
- valyuta mübadiləsi;
- "ASAN xidmət" mərkəzlərində göstərilən xidmətlərlə bağlı dövlət rüsumlarının və xidmət haqlarının qəbulu;
- inzibati xətalara dair cərimələrin qəbulu;
- sığorta xidmətləri:
- avtomobillərin sığortası;
- daşınmaz əmlakın sığortası;
- hüquqi yardım xidmətləri:
- hüquqi məsələlərə dair şifahi və yazılı məsləhətlər, izahatlar və arayışlar verilməsi;
- məhkəmələrə iddia ərizələrinin verilməsi ilə bağlı hüquqi yardım göstərilməsi;
- ərizələrin, şikayətlərin və hüquqi xarakterli sənədlərin tərtib edilməsi;
- vətəndaşların müraciəti əsasında digər növ hüquqi yardım göstərilməsi;
- bütün növ sənədlərin dövlət dilinə və ya dövlət dilindən digərinə tərcümə edilməsi ilə bağlı xidmətlər;
- tibb xidmətləri:
- tibbi arayışların verilməsi;
- ilkin tibbi yardım göstərilməsi;
- rəsmi internet informasiya ehtiyatı vasitəsi ilə göstərilən xidmətlər:
- real vaxt rejimində növbənin tutulması;
- vətəndaş müraciətlərinin real vaxt rejimində qəbulu və cavablandırılması;

- “Asan xidmət” mərkəzlərində göstərilən bütün xidmətlər üzrə vətəndaşların məlumatlandırılması;
- e-asan bölməsi vasitəsi ilə “Asan xidmət” mərkəzlərində göstərilən xidmətlərlə bağlı dövlət orqanlarına müraciətlərin qəbulunun və həmin müraciətlərin cavablandırılmasının elektron formada təşkili;
- mərkəzlərdə quraşdırılan xüsusi terminallar vasitəsi ilə göstərilən xidmətlər:
- mobil rabitə və internet xidmətlərinin ödənişi;
- kommunal xidmətlərin ödənişi;
- kredit və sığorta ödənişlərinin həyata keçirilməsi.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin işçilərinin say həddi 2013-2016-cı illərdə ərzində 120-dən *522* ştat vahidinə qədər artırılıb.

2013-2016-cı illərdə bir sıra dövlər qurumlarında dövlət xidmətləri üzrə elektron xidmətlərin inzibati reqlamentləri qəbul edilib.

*Əmlak Məsələləri Dövlət Komitəsi:*

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin Kollegiyası 13 yanvar 2014-cü il tarixli, 01 saylı Qərarı ilə **Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən müvafiq fəaliyyət sahələri üzrə göstərilən elektron xidmətlərin inzibati reqlamentləri** təsdiq edilib.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən müvafiq fəaliyyət sahələri üzrə təsdiq edilən elektron xidmətlərə dair inzibati reqlamentlər qəbul edilib və onun əsasında aşağıdakı elektron xidmətlər göstərilir:

- daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;
- daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu;
- daşınmaz əmlakın ipotekasının əlavə qeydiyyatı və sonrakı ipotekanın dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;
- daşınmaz əmlakın ipotekasının əlavə qeydiyyatı və sonrakı ipotekanın dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu;
- ipoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin qeydə alınması üçün müraciətin və sənədlərin qəbulu;
- ipoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin ləğvi üçün müraciətin və sənədlərin qəbulu;
- daşınmaz əmlakın lizinqinin dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;
- daşınmaz əmlakın lizinqinin dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu;
- dövlət müəssisə və təşkilatlarının, habelə tam özəlləşdirilməmiş səhmdar cəmiyyətlərinin və nizamnamə fondunda dövlət payı olan hüquqi şəxslərin balansında olan limitdən və tələbatdan artıq minik avtomobilləri və digər nəqliyyat vasitələrinin, o cümlədən normativ-istismar müddəti bitmiş, tam aşınmış, silinməli olan nəqliyyat vasitələrinin və avadanlıqların hərraclar vasitəsilə satışına aid müraciət və sənədlərin qəbulu.

*Dövlət Gömrük Komitəsi:*

Dövlət Gömrük Komitəsinin Kollegiyasının "100/03/001" nömrəli, 04.11.2013-cü il tarixli qərarı ilə **müvafiq fəaliyyət sahələri üzrə göstərilən elektron xidmətlərin inzibati reqlamentləri** təsdiq edilib

- Dövlət sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üçün ilkin məlumatlandırma üzrə müraciətin və sənədlərin qəbulu
- Xarici iqtisadi fəaliyyət iştirakçılarına həyata keçirdikləri idxal-ixrac əməliyyatları barədə statistik məlumatların verilməsi
- Fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi üzrə elektron Sərnişin bəyannaməsinin qəbulu
- Malların nomenklaturası və mal və nəqliyyat vasitələrinə tətbiq olunan müvafiq gömrük ödənişləri barədə məlumatların verilməsi

Dövlət Gömrük Komitəsinin Kollegiyasının "100/03/001" nömrəli, "2 may" 2016-cı il tarixli qərarı ilə Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron Gömrük Bəyannaməsinin qəbulu üzrə inzibati reqlament qəbul edilib.

*Maliyyə Nazirliyi:*

Maliyyə Nazirliyinin Q-01 saylı, 09 yanvar 2013-cü il tarixli qərarı ilə **Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı və istifadəsi, dövriyyəsi fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi üçün müraciətin və sənədlərin qəbulu** üzrə inzibati reqlamenti təsdiq edilib.

*Səhiyyə Nazirliyi*

Səhiyyə Nazirliyinin 05 saylı, 04 fevral 2013-cü il tarixli qərarı ilə bəzi elektron xidmətlər üzrə inzibati reqlamentlər barədə qərar qəbul edilib:

- "Dərman vasitələri haqqında məlumatın verilməsi;
- "Obliqat qruplara aid vətəndaşlara müayinələrdən keçmələri barədə məlumatın verilməsi;
- "Tibb müəssisələri barədə məlumatların verilməsi;
- "Vətəndaşlara elektron sağlamlıq kartı üzrə məlumatların verilməsi.

13 mart 2013-cü il tarixli, 09 saylı Qərar:

- Müəssisə rəhbərlərinə obliqat qrupuna daxil olan işçiləri barədə məlumat verilməsi;
- İmmunoprofilaktika üzrə məlumatın verilməsi;

*Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi:*

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin **004 saylı, 21 fevral 2013-cü il tarixli Qərarı ilə** elektron xidmətlər üzrə inzibati reqlamentlər barədə qərar qəbul edilib:

- Apellyasiya şurasına etirazın (ərizənin) verilməsi;
- Əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu elektron xidməti;
- İxtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının və ya coğrafi göstəricinin reyestr məlumatlarından çıxarış verilməsi üçün müraciətin və sənədlərin qəbulu elektron xidməti;
- Lisenziya müqavilələrinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu elektron xidməti;
- İxtiraya, faydalı modelə və ya sənaye nümunəsinə patent verilməsi üçün müraciətin və sənədlərin qəbulu elektron xidməti;
- Əmtəə nişanına dair hüquqların verilməsi barədə müqavilələrin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu elektron xidməti;
- Texniki reqlamentlər, standartlar və keyfiyyətin qiymətləndirilməsi prosedurlarına dair sorğuların onlayn təqdim edilməsi elektron xidməti;
- Standartlaşdırma sahəsində normativ sənədlərin qeydiyyatı və onlarda dəyişiklik aparılması üçün müraciətin və sənədlərin qəbulu elektron xidməti;
- Ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu elektron xidməti;
- Cərimələrin internet vasitəsilə ödənilməsi elektron xidməti;

2013-2016-cı illərdə digər dövlət qurumları da elektron xidmət göstərmək üçün inzibati reqlamentlər təsdiq edib.

Dövlət xidmətləri haqqında məlumatların vahid mənbədə toplanması və sistemləşdirilməsi, xidmətlərin göstərilməsində təkrarlığın aradan qaldırılması və yeni növ xidmətlərin yaradılması yolu ilə bu sahədə idarəetmənin çevikliyinin təmin edilməsi, xidmətlər üzrə təhlil və proqnozlaşdırma imkanlarının artırılması məqsədi ilə ölkə prezidenti **"Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında"** 11 sentyabr 2014-cü il tarixli, 262 saylı Fərman imzalayıb. Fərman əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə Dövlət Xidmətlərinin Elektron Reyestrini yaratmaq tapşırılıb. Dövlət Xidmətlərinin Elektron Reyestrinə Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və büdcə təşkilatlarının fəaliyyət istiqamətlərinə və səlahiyyətlərinə uyğun olaraq göstərdikləri xidmətlər daxil ediləcək. Fərmana görə, bu qurumlar 2016-cı il oktyabrın 1-dək dövlət xidmətləri barədə məlumatlandırmanın vahid mənbədən həyata keçirilməsini və dövlət xidmətləri barədə məlumatların mütəmadi yenilənməsini təşkil etmək məqsədi ilə öz rəsmi internet informasiya ehtiyatlarında dövlət xidmətləri bölməsinin yaradılmasını, burada müvafiq dövlət xidmətləri barədə Elektron Reyestrdəki məlumatlara keçidin yerləşdirilməsini və elektron xidmətlərin həmin bölmədən həyata keçirilməsini təmin etməlidirlər

"ASAN xidmət indeksi" vasitəsilə Elektron Reyestrə daxil edilmiş aşağıdakı xidmətlər qiymətləndiriləcək.

- *xidmət barədə məlumatlandırma (xidmət üçün tələb olunan sənədlər və xidmət haqları barədə məlumatlandırma, sorğu xidmətinə edilən müraciətlərin cavablandırılma operativliyi və s.);*
- *xidmətə müraciət imkanları (elektron, poçt, birbaşa);*

- *xidmətin göstərilmə müddəti;*
- *xidmətin təşkilində istifadə edilən informasiya ehtiyatlarının elektronlaşdırılması və digər dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiyası;*
- *xidmətlərin təşkili ilə bağlı əməkdaşlara təlim keçilməsi;*
- *şikayət və nəzarət mexanizmləri;*
- *vətəndaş məmnunluğunun ölçülməsi mexanizmləri;*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 9 fevral tarixli 32 nömrəli qərarı ilə "Dövlət Xidmətlərinin Elektron Reyestrinin aparılması Qaydaları təsdiq edilib.

## Daxili bazarın təhlükəli məhsullardan qorunmasında, ticarətdə texniki maneələrin aradan qaldırılmasında və sahibkarlığın inkişafında əhəmiyyəti böyük olan standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması, təkmilləşdirilməsi və inkişaf etdirilməsi

Daxili istehsalın kifayət qədər olmaması səbəbindən əhalinin ərzaq və qeyri-ərzaq məhsullarına olna tələbatı idxal hesabına təmin edilir. Bir sıra hallarda xaricdən gətirilən mallar, xüsusilə də qida məhsulları yerli sahibkarlığı sıradan çıxartmaqla yanaşı insan sağlamlığı üçün problemlər yaradır. İnkişaf Konsepsiyasında daxili bazarın təhlükəli məhsullardan qorunması, standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması və inkişaf etdirilməsi hədəf olaraq qarşıya qoyulub.

Daxilin bazarın təhlükəli məhsullardan qorunmas əsasən 2 istiqamətdə aparılıb.

- Gömrük keçid-məntəqələrində ölkəyə gətirilən mallara nəzarətin gücləndirilməsi
- Beynəlxalq tələblərə uyğun dövlət standartlarının qəbulu
- Keyfiyyətsiz malların satışının qadağan edilməsi

*Gömrük keçid-məntəqələrində ölkəyə gətirilən mallara nəzarətin gücləndirilməsi*

Gömrük keçid-məntəqələrində nəzarətin gücləndirilməsi yolu ilə ölkəyə təhlükəli malların daxil olmasının qarşısını almaq üçün aşağıdakı qanunvericilik aktları qəbul edilib:

- **“Ekoloji təhlükəsizlik haqqında”** Qanuna 1 fevral 2013-cü il tarixli **552-IVQD** nömrəli dəyişiklik edilməklə genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarının Azərbaycan Respublikasının ərazisinə gətirilməsinə, həmin ərazidə yayılmasına və istifadəsinə qadağa tətbiq edilib.
- Nazirlər Kabinetinin 18 yanvar 2013-cü il tarixli 7 nömrəli qərarı ilə mal və nəqliyyat vasitələri üzərində gömrük nəzarətinin həyata keçirilməsi qaydalarını müəyyən edən **“Gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları”** təsdiq edilib. Bu Qaydalar gömrük sərhəd buraxılış məntəqələrində və gömrük rəsmiləşdirilməsi yerlərində istehsal və ya kommersiya məqsədləri üçün nəzərdə tutulan mallara və nəqliyyat vasitələrinə münasibətdə gömrük nəzarətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyir. Gömrük nəzarəti gömrük qanunvericiliyinə riayət olunmasını təmin etmək məqsədi ilə gömrük orqanlarının həyata keçirdiyi tədbirlər toplusudur.
- **“Gömrük tarifi haqqında”** 13 iyun 2013-cü il tarixli 687-IVQ saylı Qanun gömrük tarifinin formalaşdırılması və tətbiqi, həmçinin gömrük sərhədindən keçirilən mallardan gömrük rüsumlarının tutulması qaydalarını müəyyən edir. Gömrük tarifinin əsas məqsədlərindən biri də daxili bazarı qorumaq məqsədilə idxalın əmtəə strukturunu tənzimləmək, malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaq, ölkə iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq və s.-dir. Qanuna görə, Nazirlər Kabineti idxal gömrük rüsumları və bəzi mallara ixrac gömrük rüsumları tətbiq edir.
- Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 232 nömrəli qərarı ilə təsdiq edilmiş **“Gömrük ekspertizasının aparılması Qaydaları”** gömrük ekspertizasının təşkili və aparılması, habelə mallardan prob və nümunələrin götürülməsi, onlar barəsində sərəncam verilməsi qaydalarını müəyyən edir. Qaydaya görə, gömrük ekspertizası

aparılması üçün malın keyfiyyətinə dair bir sıra sənədlər - baytarlıq, fitosanitar, gigiyenik və digər sertifikatların (şəhadətnamələrin) surətləri də tələb olunur.

- Nazirlər Kabinetinin 5 oktyabr 2016-cı il tarixli, 379 saylı Qərarı ilə **"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında"** 2001-ci il 12 aprel tarixli 80 nömrəli Qərara dəyişiklik edilib. Dəyişiklik nəticəsində yerli bazarın qorunması üçün Azərbaycana idxal edilən bir sıra kənd təsərrüfatı məhsulları (ev toyuqlarının əti və ət əlavələri, toyuq yumurtaları, soğan, xiyar, qoz-fındıq, üzüm, alma, armud, heyva, xurma, meyvə şirələri) üçün yeni və yüksək gömrük idxal rüsumları müəyyənləşdirilib.

*Beynəlxalq tələblərə uyğun dövlət standartlarının qəbulu*

2013-2016-cı illərdə idxal olunan və əhaliyə satılan məhsulların keyfiyyətinin lazımi səviyyədə olması üçün, təhlükəli qidaların insanların sağlamlığına mənfi təsirini aradan qaldırmaq üçün bir sıra standartlar qəbul edilib və ya qüvvədə olan sovet standartları təkmilləşdirilərək milliləşdirilib.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Kollegiyasının *"09" iyun 2015-ci il tarixli,* 150111500003 saylı Qərarı ilə aşağıdakı standartlar qəbul edilib:

- *AZS 731-1-2015 (OIC/SMIIC 1:2011) "Halal qida. Ümumi rəhbəredici sənəd"*
- *AZS 731-2-2015 (OIC/SMIIC 2:2011) "Halal sertifikatlaşdırmanı həyata keçirən orqanlar üçün rəhbəredici sənəd"*

Dövlət Komitəsinin Kollegiyasının "14" dekabr 2015-ci il, 150111500015 saylı Qərarı ilə AZS 855 -2015 (ТКП 131-2008 (30220) *"Qida məhsulları."Tərkibində GMO yoxdur" nişanı ilə markalanma qaydaları. Əsas müddəalar"* standartı qəbul edilib. Bu standartda qida məhsullarının könüllü "Tərkibində GMO yoxdur" nişanı ilə markalanmasının və istehsalçıların, idxalçıların və istehsalçının səlahiyyətli nümayəndəsi tərəfindən istifadəsinin tətbiqi üçün nəzərdə tutulur. Markalanmanın məqsədi məqsədi qida məhsulları haqqında geniş və həqiqi məlumatların alınması üçün istehlakçının hüquqların reallaşdırmasını, qida məhsulların bilikli seçimində istehlakçılara yardım göstərilməsini, qida məhsulların rəqabət qabiliyyətinin artırılmasını təmin etməkdir.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi *"14" dekabr 2015-ci il* tarixində yeyinti sferasında dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyyələrə uyğunlaşdırmaq məqsədilə aşağıdakı standartları qəbul edib.

- *AZS 810-2015 (CODEX STAN 310-2013) "Nar".*
- *AZS 837-2015 (CODEX STAN 152-1985) "Buğda unu"*
- *AZS 838-2015 (CODEX STAN 33-1981) "Zeytun yağları və cecələrdən sıxılmış zeytun yağları".*
- *AZS 839-2015 (CODEX STAN 87-1981) "Şokolad və şokolad məhsulları"*
- *AZS 840-2015 (CODEX STAN 279-1981) "Kərə yağı".*
- *AZS 841-2015 (CAC/MRL-2-2015) "Yeyinti məhsullarında baytarlıq preparatlarının qalıqlarına dair yol verilən maksimum konsentrasiyalar (YKM) və risklərin idarəedilməsi üzrə tövsiyyələr".*
- *AZS 842-2015 (CAC/RCP1-2015) "Qida gigiyenasının ümumi prinsipləri-tövsiyyə edilən beynəlxalq təcrübə kodeksi".*

- *AZS 843-2015 (ГОСТ Р 51074-2003) "Qida məhsulları. İstehlakçı üçün məlumat. Ümumi tələblər".*
- *AZS 856-2015 (ГОСТ Р 51204-98) "Dəmir yolunun kontakt şəbəkəsi üçün çubuqlu polimer izolyatorlar. Ümumi texniki şərtlər".*
- *AZS 860-2015 (ГОСТ Р 51377-99) "Məişət qızdırıcı qaz konvektorları təhlükəsizlik tələbləri və sınaq üsulları" .*

Bu standartlar beynəlxalq, Avropa və Rusiya Federasiyasının milli standartları əsasında hazırlanıb.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi 2016-cı ildə aşağıdakı standartları qəbul edib.

- *AZS 849-2016 "Bal" (CODEX STAN 12-1981) standartını qəbul edib.*
- *AZS 286-2016 "Pasterizə və ultrapasterizə (UYT) edilmiş qaymaq. Ümumi texniki şərtlər"*
- *AZS 851-2016 "Brendi. Ümumi texniki şərtlər"*
- *AZS 852-2016 "Tünd alkoqollu içkilər. Texniki şərtlər"*

Dövlət standartları qəbulu, tətbiqi və əlçatanlığı sahəsində bir sıra problemlər mövcuddur. Belə ki, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən qəbul edilən standartların az bir hissəsi ictimaiyyət üçün əlçatandır və bu standartları əldə etmək ödənişlidir. Halbuki beynəlxalq təcrübə göstərir ki, standartlar normativ aktın bir hissəsi kimi açıq olmalıdır. Standartların ancaq istehsalatda tətbiqi ödənişli olmalıdır. Digər məqam sovet standartlarının milli standartlara uyğunlaşdırılması və uyğunlaşma prosesində vacib komponentlərə münasibətdə göstəricilərin nisbətən yumşaldılmasıdır. Bu yumşaldılma bəzi hallarda keyfiyyətsiz malların bazara yol tapmasına şərait yaradır.

*Keyfiyyətsiz malların satışının qadağan edilməsi*

**"Yeyinti məhsulları haqqında" Qanuna** edilmiş 28 oktyabr 2014-cü il tarixli 1091-IVQD nömrəli dəyişikliyə görə, yeyinti məhsullarının, o cümlədən ökəyə gətirilən məhsulların keyfiyyət və təhlükəsizlik göstəricilərinin standartlar və tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə verilən uyğunluq sertifikatının istifadə müddəti məhsulun son yararlılıq müddətinədək limitləşdirilib.

Bu Qanuna görə, Azərbaycan Respublikasına gətirilən yeyinti məhsullarının tərkibi kimyəvi, bioloji, toksikoloji və radioloji göstəricilərinə görə ekspertizadan keçirilir və bu məhsullar dövlət reyestrində gigiyena qeydiyyatına alınır və dövlət gigiyena qeydiyyatına alınmamış yeyinti məhsullarının satışına icazə yoxdur. 22 oktyabr 2013-cü il tarixli, 775-IVQD nömrəli Qanunla genetik modifikasiya olunmuş bitkilərin genetik materialları olan yeyinti məhsullarının dövlət gigiyena qeydiyyatına alınması qadağan edilib.

## Nəticə və təkliflər

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının hədəfə çatma müddətinin yarısını geridə qoydu. Konsepsiya ümumilikdə 8 illik müddəti, 2013-2020-ci illəri əhatə edir. Hesabat hazırlanarkən Konsepsiyanın qüvvədə olma müddətinin ilk yarısı monitorinq edilib. Konsepsiya çərçivəsində görülən işlərin monitorinqi aparılarkən indikatorlar sisteminin olmaması fəaliyyətlərin səmərəliliyini qiymətləndirməyə imkan vermir. Üstəgəl Konsepsiyada məqsədlərin ümumi və yayğın olması qiymətləndirmə prosesində çətinlik yaradır. Bu araşdırma aralıq qiymətləndirmə məqsədi daşıyır. Konsepsiyanın müddəti başa çatmadığından qarşıya qoyulan məqsədə çatma səviyyəsini tam qiymətləndirmək mümkün deyil. Buna görə də tədqiqatda daha çox Konsepsiyada qarşıya qoyulmuş hədəflərə çatmaq üçün göstərilən fəaliyyətlər və onların məqsədi qiymətlənilib.

Qiymətləndirmə ümumilikdə aşağıdakı nəticələri ortaya çıxartdı:

- *Bəzi səlahiyyətli dövlət qurumlarının səlahiyyətlərinin və nəzarət imkanlarının artırılmasına rəğmən monitorinq olunan sektorda ciddi institusional dəyişiklik baş verməyib*
- *Dövlət qurumlarının elektron xidmətlərinin sürətlə genişlənməsi və əhalinin bu xidmətlərdən istifadə imkanlarının artması tendensiyası baş verir*
- *Qanunvericiliyə edilmiş dəyişikliklər və yeni qəbul edilmiş normativ aktlar daha çox şəffaflığın və hesabatlılığın artırılmasına yönəldilib*
- *Dövlət xidmətlərinin sayının və çeşidinin artması fonunda bu xidmətlərin özəl sektora ötürülməsi nəinki baş vermir, hətta bəzi özəl xidmətləri dövlət qurumları (ASAN xidmət) öz üzərinə götürməyə cəhd edir*
- *Dövlət qurumlarının nəzarətinin gücləndirilməsi fonunda vətəndaş cəmiyyəti institutlarının nəzarətinin məhdudlaşdırılması müşahidə edilir*
- *Hüquq-mühafizə orqanlarının fəaliyyətinə dair qəbul edilmiş normativ aktlara çıxışın məhdudlaşdırılması müşahidə edilir*

Tədqiqat müəllifləri hesab edir ki, 2016-cı ilin sonu ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirmək məqsədi daşıyan “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi”nin qəbulu Konsepsiyanın prioritetliyini arxa plana keçirəcək. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir. Hazırda ölkənin əsas hədəfləri mövcud iqtisadi böhrandan minimal itki ilə çıxmaq və iqtisadiyyatın neftdən asılığını azalmaqla iqtisadiyyatı şaxələndirməkdir. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası isə müasir çağırışlara tam cavab vermir, daha çox yüksək neft gəlirlərinə malik iqtisadiyyatın hədəflərinə uyğunlaşdırılıb.

Konsepsiyanın icrası prosesində hədəflərə çatmaq məqsədilə müxtəlif sahələr üzrə aşağıdakı addımların atılması məqsədə uyğun olardı:

***Korrupsiyaya qarşı mübarizə tədbirlərinin genişləndirilməsi istiqamətində:***

- *Korrupsiyaya qarşı mübarizə prosesinə vətəndaş cəmiyyətinin təmsilçiləri (dövrü mətbuat, QHT-lər, hərəkatlar, koalisiyalar və s.) cəlbinin gücləndirilməsi*
- *Maraqların toqquşmasının qarşısının alınmasının (maraq konflikti subyektlərinin dairəsi genişləndirilməsi və dəqiqləşdirilməsi) və maliyyə xarakterli məlumatların təqdim edilməsinin konkret mexanizmləri işlənilməli, məlumatların ictimaiyyətə açıqlanmasının icbariliyi təmin edilməlidir*
- *Satınalmalar sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, satınalmaların nəticələrinin ictimailəşdirilməsinin və dövrü mətbuatdə məlumatlar yerləşdirilməsinin öhdəlik kimi nəzərdə tutulması*
- *Əhalinin və ya şirkətlərin tenderlər barədə məlumata bərabər çıxış imkanının artırılması üçün elektron hərracların təşkili*
- *Dövlətə məxsus şirkətlər, həmçinin dövlət payı olan şirkətlərin, səhmdar cəmiyyətlərin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə korporativ idarəetmə standartlarının tətbiqi*
- *Dövlət qurumlarının və şirkətlərinin "İnformasiya əldə etmək haqqında" qanunun tələblərinə əsasən rəsmi internet səhifələrində müvafiq məlumatların yerləşdirilməsinin təmin edilməsi*

***Bələdiyyələrin potensialının gücləndirilməsi, bələdiyyə idarəçiliyi sahəsində ixtisaslaşmış kadrların hazırlanması istiqamətində***

- *Bələdiyyələrin səlahiyyətlərə uyğun maliyyə resuslarının formalaşmasına nail olmaq üç ün "minimal büdcə təminatı" mexanizminin tətbiqinin hüquqi əsasları yaradılmalıdır;*
- *Yerli idarəetmədə islahatlar aparılmalı, yerli səviyyədə idarəetmədə paralellik aradan qaldırılmalı, bələdiyyələrə tam və müstəsna səlahiyyətlər veruilməlidir*
- *Bələdiyyələrə onların səlahiyyətlərinin həyata keçirilməsini təmin edə biləcək dayanıqlı maliyyə mənbələri verilməli, vergi qanunvericiliyinə dəyişiklik etməklə paylı vergi sistemi tətbiqi imkanları nəzərdən keçirilməlidir;*
- *Bələdiyyələrə dövlət büdcəsindən transfertlərin verilməsinin mövcud mexanizmləri təkmilləşdirilməli, bələdiyyələrə məqsədsiz transfertlərlə yanaşı məqsədli transfertlərin də verilməsi təmin edilməli və transfertlərin həcmi əhəmiyyətli dərəcədə artırılmalıdır;*
- *Bələdiyyələrin mövcud vergi mənbələrindən səmərəli istifadə etmələrini təmin etmək ü çün vergitutma mexanizmləri təkmilləşdirilməlidir;*
- *Bələdiyyələrin əlverişli şərtlərlə kreditləşməsi üçün uyğun mexanizmlər işlənibhazırlanmalı, bələdiyyələrin inkişafını dəstəkləyən müxtəlif maliyyə fondlarının yaradılması dəstəklən məlidir.*
- *Bələdiyyə kadrlarının hazırlığı sistemi yaradılmalı, tədris proqramları təkmilləşdirilməli, təlim-tədris proqramlarının rəsmi akkreditasiyası həyata keçirilməlidir;*

- *İxtisasartırma kursları ehtiyaclılığa əsaslanmalıdır. Bunu nəzərə alaraq bələdiyyə birlik ləri və səlahiyyətli dövlət qurumları təlim ehtiyaclarının dəqiq və müntəzəm müəyyənləşdirilməsinə imkan verən mexanizm işləyib hazırlamalıdırlar;*
- *Nazirlər Kabineti bələdiyyə qulluğu üzrə peşə-ixtisas standartları müəyyənləşdirməlidir;*
- *Bələdiyyə kadrlarının yenidən hazırlığı və ixtisaslarının artırılması sahəsində milli strategiya işlənib hazırlanmalı, bələdiyyə kadrlarının daha geniş hissəsini əhatə etmək üçün regional təlim-tədris mərkəzləri yaradılmalıdır.*

***Qeyri-hökumət təşkilatlarının, xüsusən bölgələrdə fəaliyyətinin dəstəklənməsi istiqamətində:***

- *QHT və fondların, ictimai birliklərin, qeyri-kommersiya qurumlarının fəaliyyətini tənzimləyən qanunvericilik aktları yenidən işlənməli, mövcud qanunlarda olan, eyni zamanda sonradan daxil edilən azadlıqları məhdudlaşdıran və daraldan, habelə onun həyata keçirilməsini çox qəliz proseduralara bağlayan normalarından imtina edilməlidir*
- *Konstitusiyada birləşmək azadlığının əvvəlcədən müvafiq dövlət orqanından icazə alınaraq həyata keçirilməsini nəzərdə tutan norma olmadığından, birləşmək azadlığını reallaşdırmaq istəyən və QHT quran şəxslərin, habelə xarici qeyri-kommersiya qurumlarının filial və nümayəndəliklərinin qeydiyyat prosedurаları sadələşdirilməli, qeyri-kommersiya qurumlarının qeydiyyatının mətbu orqanlarda olduğu kimi bildiriş sisteminə keçirilməsi təmin edilməlidir.*
- *Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Qanunda QHT-lərə dair normalar tamamilə yenilənməli, dövlət qeydiyyatı bildiriş sisteminə görə sadələşdirilməş formada həyata keçirilməli, legitim hüquqi məqsədə söykənməyən normalar ləğv edilməlidir.*
- *Qeyri kommersiya qurumlarının, xarici qeyri kommersiya qurumlarının filial və nümayəndəliklərinin fəaliyyətinə mane olan bütün normalar aradan qaldırılmalı, qrant və ianələrin qeydiyyat sistemi ləğv edilməli, alınan qrant və ianələr haqqında məlumat sadəcə illik maliyyə hesabatında təqdim edilməli, qrant və ianələrə dair banklarda əməliyyat heç bir ön şərtə bağlı olmadan tam sərbəst olmalı, qrant və ianə ödənişlərində qanunla yol verilən hər iki 91 ödəniş sistemi, nağd və köçürmə sistemi mümkün olmalıdır.*
- *Donorların sərbəst fəaliyyətinə mane olan bütün normalar qanunvericilikdən çıxarılmalıdır. Azərbaycanda fəaliyyət göstərən xarici QHTlərin filial və nümayəndəliklərinin Azərbaycandakı hər hansı fəaliyyətinə məhdudiyyət qoyulmamalı, qanunvericilikdə bu tip ayrıseçkiliklərə yer verilməməlidir.*
- *QHT-lərin fəaliyyətinə xitam verilməsinə əsas təşkil edən süni səbəblər Qanundan çıxarılmalıdır. QHTnin yazılı xəbərdarlıq alması, yaxud inzibati qaydada cəzalandırılması təkbaşına onun ləğvinə əsas təşkil etməməlidir. İnzibati cərimələrin miqdarı 2008-ci ilədək olan limitlərə geri çəkilməli, heç bir kommersiya məqsədi olmayan qeyri-kommersiya qurumlarının yüksək cərimələri İnzibati Xətalar Məcəlləsindən çıxarılmalıdır.*
- *QHT-lərin fəaliyyətini tənzimləyən birbaşa və əlaqəli normativ hüquqi aktlar yenidən nəzərdən keçirilməli, onları müddəaları QHT-lərin fəaliyyətini əngəlləyici olmamalı, tənzimləyici olmalıdır;*

- *Qanunvericilikdə xarici hüquq şəxslərin nümayəndəlik və filiallarının qeydiyyatı üçün tələb olunan əngəlləyici proseduralar sadələşdirilməli, xüsusilə saziş bağlama tələbi ləğv edilməli, Azərbaycan QHT-ləri ilə onların hüquqlarnın eyniliyi təmin edilməlidir. Yerli QHT-lər üçün tələb olunan proseduradan əlavə, xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin qeydiyyatı üçün öz ölkəsində hüquqi baxımdan fəaliyyət göstərdiyini təsdiq edən sənədin təsdiqlənmiş surəti və təşkilatın nümayəndəlik və ya filial açmasına dair qərarını təqdim etmək yetərli olmalıdır.*

***Dövlət sektorunda bir sıra xidmətlərin müvafiq sahə üzrə ixtisaslaşmış özəl müəssisələrə ötürülməsi***

- *Kommunal sektorun (içməli su təminatı, elektrik enerjisi təminatı, təbii qaz təminatı) idarə edilməsi özəl sektora verilməsi*
- *Dövlət kommunal sektorda yalnız dövlət siyasıtini müəyyənləşdirilməsini, tarif mexanizmini müəyyənləşdirməsi*
